# DÜŞÜNƏN İNSAN

№ 36 - Dekabr 2014 - 2 AZN



# TERRORİZMƏ QARŞI İDEOLOJİ MÜBARİZƏ YOLLARI

- Körpələr danışmağı necə öyrənir?
- Hz.Lut qövmünün pozğunluğu
- Görən,dad bilən,toxunan və eşidən bitkilər
- Mömin imanı dərəcəsində ətrafındakı nemətlərdən zövq alır...
- Dünya həyatı çox qısa imtahan dövründən ibarətdir
- Ancaq Allah sevgisi qadınlara qarşı şiddətin həll yoludur
- DNT-nin möcüzəvi quruluşu
- İslam ədalətlə davranmağı əmr edir

2014 Dekabr №36

DÜŞÜNƏN İNSAN

34 ÜZ QABIĞI MÖVZUSU

# Terroizmə qarşı ideoloji mübarizə yolları




8
## Görən, dad bilən, toxunan və eşidən bitkilər



42
## Uşaqlar Müharibələrlə deyil, Sevgi ilə böyüməlidir



52
## DNT-nin möcüzəvi quruluşu



## içindəkilər

12 Mömin imanı dərəcəsində ətrafındakı nemətlərdən zövq alır...
16 Lüsi kimdir?
18 Hz.Lut qövmünün pozğunluğu
22 Fosillər təkamülü təkzib edir
30 Körpələr danışmağı necə öyrənir?
38 Əxlaqi təmizlik minaların təmizlənməsi qədər vacibdir
40 Ancaq Allah sevgisi qadınlara qarşı şiddətin həll yoludur
46 Payızda yarpaqların tökülməsinin ardındakı hikmətlər
56 Dünya həyatı çox qısa imtahan dövründən ibarətdir
58 İslam ədalətlə davranmağı əmr edir

*DÜŞÜNƏN İNSAN - Elmi-kütləvi, mənavi-psixoloji jurnal*
*Dekabr 2014; № 36*
*Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. Reyestr № 3418*
*Təsisçi və redaktor: Ziya Kazımov ;Telefon: (077) 381 61 91*
*E-mail: info@dusuneninsan.net; www.dusuneninsan.net*
*Ünvan: AZ1000 Abonent qutusu 35,Bakı, Azərbaycan*
*Çapa imzalanma tarixi:*
*Tiraj: 300*
*Qiyməti: 2 manat*

Astrofizik Gilyermo Qonzalez

Daha böyük planet daha yüksək cazibə qüvvəsi və okean dibi ilə dağlar arasında daha az səth zəifliyi deməkdir. Planetin cazibə qüvvəsinin daha çox olması dağlara təsir edən cazibə qüvvəsinin daha çox olmasına və daha düz səth əmələ gətirməyə meyillilik deməkdir.

Planetimizin səthi düz olsaydı, nə baş verərdi? Yerin üstü su ilə dolardı. Hal-hazırda su dünyasında yaşamamağımızın yeganə səbəbi suyun üzünə çıxan qitələrin və dağların olmasıdır. Əgər bütün quru ərazilər düz olsaydı, suyun dərinliyi iki kilometrə çatardı. Sularla dolu dünyamız olardı və su dünyası ölü dünyadır. Su dünyasında yüksək duz qatılığı həyatı qeyri-mümkün edərdi. Həyat ancaq müəyyən səviyyədə duzluluğa davamlıdır.

Sahil boyu geniş, bataqlıq bölgələr var. Bu bölgələr dayaz olduğuna görə okeanlardan bu bölgələrə gələn su tez buxarlanır, duz qalır. Beləcə, qitələrdə toplanan nəhəng duz ehtiyatları əmələ gəlir və okeanın duz tərkibi də tənzimlənmiş olur. Ancaq su dünyasında həddindən artıq duz suyu doyurar və dibə çökər. Bu vəziyyət həyata düşmən super duzlu duz məhlulu əmələ gətirər.

Lee Strobel, The Case for a Creator, 2004, səh. 244.



*Biz, əlbəttə, müsəlman ölkəsiyik, cəmiyyət öz ənənələrinə, dininə sadiqdir. İslam sülh dinidir. Bizim milli və dini dəyərlərimiz bütün məsələlərin həllinə məhz bu cür sülh yolu ilə yanaşma tələb edir.*

**İlham Əliyev**



# Elmi-texnoloji

## Alimlər Günəş haqqnda yeni məlumatlar əldə etdi

NASA-nın IRIS (Interface Region Imaging Spectrograph) elmi-tədqiqat aparatı günəş atmosferi haqqında yeni məlumatlar əldə etdi. Bu barədə NASA-nın rəsmi saytı məlumat yaydı. Yeni məlumatlara əsasən, günəş tacının səthə nisbətən daha çox qızdığı və bunun da "günəş küləyi" adlandırılan hissəciklərin fasiləsiz olaraq yaymasına səbəb olduğu məlum oldu.

Aparat günəş atmosferində indiyə qədər məlum olan aşağı temperatura malik nahiyyələrdən 93000 °C daha aşağı temperatura malik nahiyələr aşkara çıxarıb. Alimlər qısa zaman kəsiyində buraxdığı enerji həcminə görə bu nahiyələri "günəş istilik bombaları" adlandırıblar. Gözlənilmədən istilik buraxan bu enerji mənbələrinin aşkara çıxarılması bütün günəş atmosferinin qızmasının mexanizmlərinin daha dərindən anlamağa yardım edəcək.

Aparat həmçinin Günəşin bütün xromosferi – xarici təbəqəsi üzrə səpələnən və saniyədə 20 km hərəkət edən kiçik tornadolara bənzəyən çoxlu strukturları kəşf edib. Elm adamları bu tornadoların tacı enerji ilə qidalandıran mexanizmlə təmin etdiyi və plazma püskürmələrinin günəş küləyinin mənbəyi olduğu qənaətinə gəliblər.

Bunlarla yanaşı, yeni məlumatlar ulduzun atmosferdən necə enerji ötürdüyünə, həmçinin günəş aktivliyi dinamikliyinin kosmosda və Yerdəki texnoloji infrastrukturlara mümkün təsiri barədə bir çox məqamlara aydınlıq gətirəcək.



# Xəbərlər

## Su altında zövqlü formalar düzəldən balıq yenidən kameraya yaxalandı

Şəkildə gördüyünüz sualtı qumlarda zövqlü diametri 2 metr olan bu formaların müəllifi 12 santimetrlik şar balığıdır (pufferfishes, yaxud Torquigener). İlk vaxtlarda mənşəyi bilinməyən bu "sehrli" formaların müəllifinin kiçik balıqlar olduğu 1995-ci ildə Yaponiya sahillərində sualtı fotoqraf işləyən Yoji Okata tərəfindən müəyyən edilib dünyaya təqdim edilmişdir. Məlum olmuşdur ki, formaları balıqların erkəkləri düzəldir, formanın tam hazır olmasına az qalmış isə dişi balıq gəlir və əgər xoşuna gəlirsə, formanın düz mərkəzinə kürü qoyur. Bu yaxınlarda həmin "sənətkar" balıqlar yenidən kameralara yaxalanıblar. Sualtı fotoqraf kimi çalışan Hyu Miller yenidən bu balıqların əsərlərinin görüntülərini kameraya çəkib. Görüntülər "BBC One" telekanalında təqdim olunub.





# İslam Dünyasında



## Almaniyanın keçmiş prezidenti Kristian Vulf: "Müsəlmanlarla eyni hissləri paylaşıram"

"İslam Almaniyaya aiddir" cüümləsi ilə hafizələrdə qalan Almaniyanın keçmiş prezidenti Kristian Vulf xristianlarla müsəlmanları terrora qarşı ortaq mübarizəyə çağırıb. Vulf: "Bir-birimizə yanlış sözlər söyləmək, iftira atmaq, bir-birimizi təqsirləndirmək əvəzinə artıq ortaq mübarizə aparmağımızın zamanı çatıb", - deyib.

Almaniyanın keçmiş prezidenti Kristian Vulf Berlin Sənaye və Ticarət Palatasında söylədiyi nitqdə İslam dinini istismar edən terrorçuları sərt şəkildə qınayıb və Almaniyada yaşayan və terrora, şiddətə qarşı çıxan müsəlmanlarla eyni hissləri paylaşdığını deyib. Vulf: "Məhz bu vəziyyətdə müsəlmanların yanında olmalıyıq və terror və şiddətə qarşı birlikdə mübarizə aparmalıyıq", -deyib. Müsəlmanlarla xristianlar arasında körpü qurulmasının tərəfdarı olan keçmiş prezident Almaniyada yaşayan müsəlmanların ərəb müsəlman dünyası ilə körpü qurmaqda vasitəçi olacaqlarını deyib.



## Mübariz Qurbanlı: «Dövlətçilik və vətənpərvərlik məfhumları dini icmaların fəaliyyətində əsas xətt olmalıdır»

Azərbaycan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı 2014-cü il 24 noyabr tarixində Suraxanı rayonunda dini icmaların nümayəndələri ilə görüş keçirib. Bu barədə Dövlət Komitəsinin mətbuat xidmətindən "Trend"ə məlumat verilib.

Görüşdən öncə M.Qurbanlı və Suraxanı rayon İcra Hakimiyyətinin başçısı İlqar Abbasov Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin abidəsini ziyarət ediblər.

Tədbiri giriş sözü ilə açan Suraxanı rayon İcra Hakimiyyətinin başçısı İ.Abbasov görüşün əhəmiyyətini vurğulayaraq qeyd edib ki, bu, dini icmaların gələcək fəaliyyəti baxımından böyük əhəmiyyət kəsb edir.

DQİDK-nın Bakı şəhəri üzrə şöbə müdiri Anar Kazımov çıxış edərək rayondakı dini durum, dini icmalar, eləcə də məscid və ziyarətgahlarla bağlı geniş məlumat verib.

Komitə sədri Mübariz Qurbanlı çıxış edərək bildirib ki, müstəqilliyimizin bərpasından sonra xalqımızın milli-mənəvi dəyərlərinə qayıdışı prosesi sürətlənib. Dövlət komitəsinin sədri bu istiqamətdə ümummilli lider Heydər



# Keçən Ay

Əliyevin müstəsna xidmətlərini qeyd edib və hazırda Prezident İlham Əliyevin milli-mənəvi dəyərlərimizin inkişafı istiqamətində həyata keçirdiyi tədbirlərdən danışıb.

Son illərdə ölkəmizdə bütün sahələrdə olduğu kimi, milli-mənəvi dəyərlərimizə dövlət qayğısının daha da artdığını diqqətə çatdıran sədr Prezident İlham Əliyevin təşəbbüsü ilə əsaslı təmir və bərpa olunan ibadət ocaqlarının, ziyarətgahların sayının gündən-günə artdığını bildirib.

Komitə sədri qeyd edib ki, Azərbaycanda dinlərarası münasibətlər, tolerantlıq ənənələri, milli-mənəvi dəyərlərimizin düzgün təbliği, ənənəvi dindarlıq anlayışının və ölkəmizin tolerantlıq modelinin mahiyyəti, müasir dünyada dini dözümlülüyün əhəmiyyəti, habelə dövlətçilik və vətənpərvərlik məfhumları bu gün dini icmalarımızın fəaliyyətində əsas xətt olmalıdır.




## Antarktidada ilk dəfə azan veriləcək

Tarixdə ilk dəfə olaraq Antarktidada azan veriləcək. Bu barədə "Trend" Tatarıstan Müsəlmanları Dini İdarəsinə istinadən məlumat verir.

Belə ki, bu gün Tatarıstanın Qul-Şərif məscidinin nəzdindəki İslam Mədəniyyəti Muzeyində Antarktidaya yola düşəcək «Antarktida-100» ekspedisiyanın iştirakçılarına Quran nüsxələri verilib.

İdarənin Təbliğat şöbəsinin rəhbəri Niyaz Sabirov bildirib ki, Quran nüsxələri Rusiyanın «Bellinshauzen» antarktik stansiyasındakı qütbçülərə çatdırılacaq: «Artıq Quranı Antarktidada da oxuyacaqlar və ilk dəfə olaraq orada azan veriləcək. Mən Quranı ekspedisiyanın üzvü, Rusiya Coğrafiya Cəmiyyətinə Dəstək Fondunun rəhbəri Rüstəm Gilmutdinova verirəm. O, Antarktidada Allah`a dua edərək Yer üzündə sabitlik və sülhün bərqərar olmasını istəyəcək».

Ümumilikdə Antarktidaya 3 Quran nüsxəsi aparılacaq. Onlardan biri «Bellinshauzen» stansiyasında qalacaq, digərləri isə Kazana qaytarılaraq Rusiya Coğrafiya Cəmiyyəti və İslam Mədəniyyəti Mərkəzinə veriləcək.

Qeyd edək ki, «Antarktida-100» layihəsi Kazan Universitetinin rektoru, Antarktidanı ilk dəfə kəşf edən Rusiya ekspedisiyasının (1819-1821) tərkibində yeganə alim olmuş İvan Simonova həsr edilib.

# Görən, dad bilən, toxunan və eşidən BİTKİLƏR



Kənardan baxdıqda ağzı, gözü və sinir sistemi olmayan bitkilər insan kimi görmə, eşitmə, dadbilmə və toxunma hisslərindən istifadə edərək çox vaxt insanlardan daha həssas olurlar.

***Bitkilərin görmə qabiliyyətinə nə üçün ehtiyacları var?***

***Bitkilərin dadbilmə duyğusu necədir?***

***Bitkilər necə eşidir?***

Yer üzündəki canlı həyatında çox mühüm yeri olan bitkilərdəki ən diqqətçəkən sistemlərdən biri əks-təsir mexanizmidir. Kənardan baxdıqda nə ağzı, nə gözü, nə də sinir sistemi olan bitkilər əks-təsir mexanizmi sayəsində çox vaxt insanlardan da həssas olurlar.

## Bitkilərin görmə duyğusu

Bitkilərin bizim kimi gözləri yoxdur, ancaq bizdən daha yaxşı görürlər. Çünki onların işığa həssas birləşmələrdən təşkil olunmuş zülalları var. Bu sayədə bizim gördüyümüz və görmədiyimiz bütün dalğa uzunluqlarını görürlər. Hətta bitkilərin işığa həssaslığı insan gözündən çoxdur.

Bitkilərin bu xüsusiyyətə malik olmasının səbəbi böyümək və həyatda qalmaq üçün işığa olan ehtiyaclarıdır. Bunun üçün da sanki gözləri var və işığı görürlərmiş kimi işıq istiqamətində

cücərir, işıq istiqamətində böyüyürlər. Hətta gün ərzində günəşi izləyən günəbaxanlara ona görə bu ad verilib. Bitkilər görmə qabiliyyəti sayəsində işığın sıxlığı, keyfiyyəti, istiqaməti və dövrü kimi şərtləri müəyyən edirlər. Bitkinin bir günlük həyat nizamı işığa əsasən qurulmuş daxili saatın nəzarətindədir.



Bitkidə işığı qavramaq funksiyasını yerinə yetirən 2 zülal ailəsi var. Bu iki ailədən biri 5 müxtəlif növü olan fitoxrom, digəri isə iki növü olan kriptoxrom zülallarıdır. Bu zülallar həm də işıq reseptorlarıdır. Bu reseptorlar bitkinin içindəki daxili saatı işığın dəyişikliklərinə əsasən qururlar.

## Dadbilmə duyğusu

Bitkilər sadəcə günəş işığı ilə yaşamırlar, torpaqdan bəzi qidaları da qəbul etməlidirlər. Dadbilmə duyğusu torpaqdan mineral və qidaları qəbul edən bitki kökləri üçün çox vacibdir. Arabidopsis bitkisi üzərində aparılan tədqiqatlarda bir genin nitrat və ammonium duzlarının bol olduğu yerləri müəyyən etdiyi üzə çıxmışdır. Bu gen sayəsində köklər nizamsız deyil, qida istiqamətində şüurlu hərəkət edirlər. Nitratı müəyyən edən bu gen ANR1-dir.

Bu gendən başqa Texas Universitetində aparılan başqa bir tədqiqatda apiraz adlı ferment də kəşf edilmişdir. Kökün səthində olan bu ferment göbələk kimi torpağa qarışmış mikroorqanizmlərin hasil etdiyi ATF-ni (adenozin trifosfat) müəyyən edir. ATF molekulu təbiətdə hər zaman hazır halda olan qısamüddətli enerji ehtiyatıdır. Apiraz bitkinin bu molekulu götürüb qidaya çevirməsini, sonra da sormasını təmin edir. Bitkilərin zibilyığan kimi hüceyrədən kənardakı ATF-ni toplayıb istifadəyə yararlı hala salması yeni kəşf edilmiş möcüzədir.

## Toxunma hissi

Dadbilmə hissi kimi toxunma hissi də bitkilərdə tez-tez rast gəlinən duyğulardandır. Milçəkqapan kimi ətyeyən bitkilər üzərilərinə qonan

həşəratı dərhal tuturlar. Mimoza isə yüngülcə toxunduqda belə incə yarpaqlarını aşağıya doğru endirir. Yaşıl noxud və lobya kimi sarmaşan bitkilər həssas toxunma duyğuları sayəsində zoğlarını möhkəm dəstəklərə sarıyırlar. Demək olar ki, bütün bitkilərin toxunma duyğusu var. Bitkilər, əsasən, yarpaqlara ciddi zərər verən küləyin şiddətinə qarşı da toxunma hissindən istifadə edirlər. Küləkdə qalan bitkilər toxumalarını sərtləşdirərək küləkli havada qırılmaqdan qorunurlar. Tədqiqatçılar toxunma duyğusunun toxumaları necə gücləndirdiyinə hələ də cavab tapmırlar.

Bir bitkinin yaşamaq üçün ehtiyacı olan bütün xüsusiyyətlərə kompleks sistemlər sayəsində malik olması bir bitkinin bircə yarpağının belə təsadüfən əmələ gəlmədiyini görmək və qavramaq üçün kifayətdir. Bitki hüceyrələri beyni, əli, gözü, şüuru və biliyi olmayan, gözlə görünməyən kiçik varlıqlardır. Bu varlıqların: "küləyə qarşı bitkini necə qoruya bilərik?" -deyə düşünüb metod tapması qeyri-mümkündür. Bütün bunlar sonsuz elm və ağıl sahibi olan uca Allah`ın varlığının dəlillərindən sadəcə bir neçəsidir.



## Eşitmə duyğusu

Başda Şimali Karolina Ueyk Forest Universiteti olmaqla, müxtəlif mərkəzlərdə aparılan tədqiqatlar nəticəsində bitkilərin müəyyən səs tezliyini və ya titrəyişi hiss etdiyi üzə çıxmışdır. Məsələn, Ueyk Forest-də keçirilən bir təcrübədə normal cücərmə faizi 20% olan turp toxumlarının müəyyən tezlikli səsə uzun müddət məruz qaldıqda cücərmə faizlərinin 80-90% artdığı müşahidə olunmuşdur. Tədqiqatçılar bitkinin boyunun uzanması və toxumun cücərməsinə kömək edən giberellin turşusu adlı bitki hormonunun bitkilərin eşitmə duyğusunda da rol oynadığını düşünürlər.

## Allah hər canlıya nəzarət edir



İnsan orqanizmi də eynilə digər varlıqlarda olduğu kimi, şüursuz atomlardan təşkil olunmuşdur və orqanizmimizdə bu atomların təşkil etdiyi şüursuz hüceyrələr bir çox proses həyata keçirirlər. Beynimiz də düşünməmizin mənbəyi kimi görünsə də, öz-özlərinə qərar vermə mexanizmi olmayan sinir hüceyrələrindən təşkil olunmuşdur. Qısası, şüur müəyyən səbəb-nəticə əlaqələri ilə açıqlana bilməz. Şüurla bağlı təkamülçü Culian Hakslinin bu sözləri diqqət çəkir:

***"Şüurlu hal qədər qeyri-adi vəziyyətin bir sinir hüceyrəsinin başladıcı hərəkəti nəticəsində meydana gəlməsi eynilə Ələddinin lampası nağılında lampanın sürtülməsi ilə cinin görünməsi qədər anlaşılmazdır". (The Problem of Consciousness, Colin McGinn)***

Burada bir neçə nümunəsini verdiyimiz bitkilərdəki şüurlu hərəkətlər, əslində, Allah`ın sonsuz ağlının təcəllilərindəndir. Rəbbimiz yer üzündəki hər şeyi nəzarətdə saxlayır:

**... O, quruda və dənizdə nələr olduğunu bilir. Onun xəbəri olmadan yerə düşən bir yarpaq belə yoxdur. Yerin qaranlıqlarında elə bir toxum, elə bir yaş və elə bir quru (şey) yoxdur ki, açıq-aydın yazıda olmasın. (Ənam surəsi, 59)**

Bitkilərin beyni və sinir sistemi yoxdur. İnsan bir cismə toxunduqda, gördükdə və ya daddıqda sinir sistemində və beynində müəyyən xəbərləşmələr və əmrlər ardıcıllığı işə düşür. Hafizə, dərrakə kimi ünsürlərin də iştirakı ilə şüurlu hərəkət üçün qərar verilir. Halbuki bitkilərin belə sinir sistemi, beyni, dərrakəsi və hafızəsi yoxdur. Buna baxmayaraq, çox şüurlu hərəkətlər edirlər. Sanki görürmüş kimi müəyyən istiqamətə çevrilir, toxunurmuş kimi özlərinə ən uyğun yeri tapır və ya dad alırmış kimi torpaqdakı bir çox maddə arasından özlərinə lazım olanları seçirlər. Bütün bu hərəkətlərin ardındakı ağılın sahibi, əlbəttə, bitkilər deyil. Onları və hər şeyi üstün elmlə aləmlərin Rəbbi olan uca Allah yaratmışdır.

# Mömin imanı dərəcəsində ətrafındakı nemətlərdən zövq alır...

Hər gün gözümüzün önündə möhtəşəm gözəllik nümayiş etdirilir. Ucsuz-bucaqsız mavi dəniz, bu dənizi əhatə edən görkəmli dağlar, yüz illər boyunca budaqlarını göyə uzadan ağaclar, par-par parıldayan Günəş, ağappaq buludlarla



bəzənmiş mavi səma və hər biri qar dənəsi kimi olan ağappaq qağayılar...

Bu görüntüləri hər gün yüzlərlə insan görür, hamısı eyni sahillərdə gəzir, hamısı təmiz dəniz havasını içinə çəkir, dənizin üzərində tonlarla yük daşıyan gəmiləri, qayıqları seyr edir. Dənizə baxdıqda müxtəlif nemətlər gözə dəyərkən, quruya baxdıqda da rəngarəng çiçəklər, bir-birindən gözəl uşaqlar, heyvanlar gözə dəyir. Nəticə etibarilə insan yüzlərlə nemətin bir arada nümayiş etdirildiyi yolun içindən keçir. Baxdığı hər yerdə Allah'ın sonsuz elmini və sənətini seyr edir.

Allah ayələrində kainatdakı qüsursuz yaradılışı belə xəbər verir:

**Yeddi göyü (bir-birinin üstündə) qat-qat yaradan da Odur. (Ey insan!) Sən Rəhmanın yaratdığında heç bir uyğunsuzluq görməzsən. Bir gözünü qaldırıb (səmaya) bax, heç orada bir yarıq (çatdaq, nöqsan) görə bilərsənmi?! (Mülk surəsi, 3)**

**(Ey insan!) Məgər göylərdə və yerdə olanların (bütün canlıların), Günəşin, Ayın və ulduzların, dağların, ağacların və heyvanların, insanların bir çoxunun (möminlərin) Allah'a səcdə etdiyini görmürsənmi? Bir çoxuna da (kafirlərə də) əzab vacib olmuşdur. Allah'ın alçaltdığı kimsəni heç kəs yüksəldə bilməz. Həqiqətən, Allah dilədiyini edər! (Həcc surəsi, 18)**

Bu bir həqiqətdir ki, küçəyə addımını qoyan hər kəs Allah'ın yüzlərlə ayəsi ilə, yüzlərlə neməti ilə bir anda qarşılaşır. Hara baxsa Allah'ın gözəlliyi və bənzərsiz sənəti qarşısındadır. Lakin buradakı önəmli sirr hər kəsin gördüyü görüntüdən imani dərəcəsində ləzzət almasıdır. İmanlı göz Allah'ın sonsuz sənəti ilə bəzənmiş təbiətə baxdıqda böyük zövq alır. Məsum və gözəl bir uşağın üzünü gördükdə həyəcanlanır. Rəngarəng bəzədilmiş quşla qarşılaşdıqda və onun səsini eşitdikdə qəlbində çox böyük sevgi yaranır. Əslində burada sevgi və heyranlıq Allah'a duyulan sevgi və heyranlıqdır. Mömin Allah'ın təzahürlərini gördükdə daima Ona yönəlir və bütün bu görüntülərin ancaq üzü üçün yaradıldığını bilir. Artıq ona düşən Rəbbimizin saysız nemətləri qarşısında şükür və səcdə etməkdir.



**O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allah'ı xatırlar, göylərin və yerin yaradılması haqqında düşünər (və deyərlər): "Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamısan! Sən pak və müqəddəssən! Bizi cəhənnəm odunun əzabından (Özün) qoru! (Ali İmran surəsi, 191)**

İnsanın imanının dərəcəsi nə qədər çoxdursa, gördüyü görüntülərin qəlbdə meydana gətirdiyi təsir də o qədər çox olur. Səmimiyyət, təslimiyyət və dərin iman görüntünün qəlbdəki təsirini qat-

qat artırır. Mömin bu gözəl görüntüləri gördükcə davamlı şükür edir. Görüntüləri görmək, təfəkkür etmək və davamlı şükür etmək möminin həyatında bir-birinə bağlı zəncirlər kimidir. Mömin gördüyü bütün görüntülərdə dərhal Allah'ı zikr edər, qəlbindən də daima bağışlanma diləyib şükür edər. Heç bitməyən şükrü sayəsində qəlbində bir fərahlıq və gözəllik meydana gələr.

İnsan ancaq gördüyü bu görüntüləri Allah'a aid edərsə, qəlbində bu gözəl təsiri əldə edə bilər. Yoxsa dünyada bir çox insan Allah'ın



ayələrini görüb, yollarına davam edir. Qəlblərində hər hansi bir təsir, sevgi, həyəcan və gözəllik meydana gəlmir. Onlar da çox gözəl süfrələrdə oturub nemətləri yeyib-içir, onlar da möhtəşəm mənzərəli evlərdə yaşayır, bir-birindən gözəl çiçəklərlə bəzənmiş bağlarda gəzirlər. Lakin Allah'ın sevgisi olmadığında qəlb bomboş olur. Belə bir həyatda təvəkkül, səbir olmadığı üçün ruh daima narahat, gərgin və bədbəxtdir. Dolayısilə o insanın gördüyü gözəl görüntülər möminin qəlbində meydana gətirdiyi təsir və həyəcanı yaratmır. O insan Allah'ın ayələrinin üzərində keçib gedərkən əslində nə qədər böyük bir itkiyə məruz qaldığının fərqində belə deyil. Allah "Yusif" surəsində bu insanların varlığını xəbər verir.

Göylərdə və yerdə (Allah'ın birliyini sübut edən) neçə-neçə əlamətlər (nişanələr) vardır ki, insanlar onların yanından üzlərini çevirib keçərlər (onlara baxıb ibrət almaz, onların həqiqi mənaları haqqında düşünməzlər). (Yusif surəsi, 105)

Dərin imanlı bir mömin gördüyü gözəl görüntülərdən olduğu kimi çətin imtahanlardan da zövq alar. Çünki bu imtahanların arxasında Allah üçün göstərilən səbir və dərin təfəkkür

gizlidir. Mömin çətinlikdə böyük savab olduğunu, Allah'ın razılığı olduğunu bilir. Hadisələrə səthi şəkildə baxdıqda nəfsin xoşuna gəlməyən bir görüntü möminin ruhunda səbir və dözüm olduğu üçün böyük gözəlliyə çevrilə bilər. Gənc yaşında zindana atılan hz.Yusif zindan həyatını təvəkküllə qarşılayıb dərhal təbliğ etməyə başlamışdır.



Hz.Nuh tək başına gəmini düzəldərkən, hz. Musa tək başına qövmünün yanından ayrılarkən, hz. Lut səhər vaxtı qövmünü tərk edib yola çıxarkən məruz qaldığı çətinlikləri hər zaman gözəlliklə qarşılamışdır.

Onlar gördükləri görüntülərin Allah tərəfindən xüsusi olaraq yaradıldığını, hər zaman imtahan olunduqlarını bilən, dərin imanlı insanlardı. Atdıqları hər addımda Allah'ın nəzarətini qəlblərində böyük bir coşğu ilə hiss edirdilər. Buna görə də Allah üçün yaşadıqları o gözəl həyatdan böyük ləzzət alır, ruhlarındakı sevgi və coşğunu daha da artırırdı. Onlar üçün hələ dünyada olarkən cənnət həyatı, nemət axını başlamışdı. Ölümlə birlikdə zahiri görüntü qalxacaq və nemətlərlə bəzənmiş cənnət qapıları saleh möminlər üçün açılacaqdır. Onlar bu gözəllikləri ruhlarında hiss edərək yaşadılar, Allah sevgisi ilə oyanıb, Allah sevgisi ilə gözlərini yumdular. Beləliklə, səmimiyyətlərinin qarşılığını həm dünyada, həm də axirətdə, məhəbbətin, sevginin, gözəlliyin ləzzətini ruhlarında ən dərindən hiss edərək aldılar. Bu şəkildə həm öz dövrlərində yaşayanlara, həm də özlərindən sonra gələnlərə çox gözəl nümunə oldular..

**İman gətirib yaxşı işlər görənlər və ümidlərini Rəbbinə bağlayanlar isə cənnətlikdirlər. Onlar orada əbədi qalacaqlar! (Hud surəsi, 23)**

# Lüsi Kimdir?

Lüsi (Lucy) 1974-cü ildə amerikalı antropoloq Donald Cohanson tərəfindən tapılan məşhur fosilin adıdır. Bir çox təkamülçü Lüsinin insanla meymunəbənzər əcdadları arasındakı ara keçid forması olduğunu iddia etmişdir. Ancaq növbəti illərdə aparılan tədqiqatlar Lüsinin nəsli kəsilmiş bir meymun növü olduğunu ortaya çıxarmışdır.

Bir meymun növü olduğu və insanın təkamülü ilə bağlı olmadığı ortaya qoyulan avstralopitek cinsinə aid bir növü təmsil edir. Bu növün (Australopithecus afarensis) şimpanzelərlə eyni böyüklükdə beyini var, qabırğaları və çənə sümüyü dövrümüzün şimpanzeləri ilə eyni şəkildədir, qolları və ayaqları canlının bir şimpanze kimi yeridiyini göstərir. Hətta çanaq sümüyü də şimpanzelərinki kimidir. (Richard Allan & Tracey Greenwood, Primates and Human Evolution in the textbook: Year 13 Biology, 1999. Student Resource and Activity Manual, (Biozone International, printed in New Zealand.), s. 260.)

Təkamülçülər Lüsinin daxil olduğu avstralopitek qrupuna aid canlıların meymun xüsusiyyətləri daşımalarına baxmayaraq, insanabənzər bir duruş və yeriş şəkli olduğunu iddia edirlər. Halbuki aparılan tədqiqatlar bunun doğru olmadığını göstərmişdir. Harvard antropoloqlarından Uilyam Houels Lüsinin yeriş şəklinin insanlarınkına bir keçid olmadığını yazır:

*Lüsinin yerişinin tam olaraq anlaşılmadığına və Lüsinin ehtiyaclarını uğurla təmin etməsinə baxmayaraq, bizim yerişimizə bənzəmədiyinə dair ümumi fikir birliyi var. (William Howells, Getting Here the Story of Human Evolution, The Compass Press, Washington D.C., 1993, s. 79.)*

Kaliforniya Universitetinin antropologiya professoru Adrien Zihlman Lüsinin fosilinin cırtdan şimpanzelərlə diqqət çəkəcək şəkildə bənzər olduğunu bildirir. (Adrienne Zihlman, «Pygmy chimps, people, and the pundits», New Scientist, 15 noyabr 1984, s. 39.)

Doktor Ceremi Çerfas da New Scientist jurnalında nəşr olunan yazısında Lüsinin kəllə quruluşu üçün belə deyir:

*Lüsinin "Australopithecus afarensis"də olduğu kimi şimpanzelərinkinə bənzəyən kəllə qutusu və buna uyğun bir beyini var. (Cherfas, Jeremy. «Trees have made man upright» New Scientist, 20 yanvar 1983, s. 172.)*

Məşhur fransız elmi Science et Vie jurnalı da 1999-cu ilin may sayında Lüsini jurnalın






üz qabığında yerləşdirmişdir. «Adieu Lucy» (Əlvida Lüsi) başlığının istifadə edildiyi yazıda avstralopitek növü meymunların insanın nəsil ağacından çıxarılmasının vacib olduğunu yazmışdır. St W573 kodlu yeni bir avstralopitek fosili tapıntısına əsaslanaraq yazılan bir məqalədə bu cümlələrə yer verilmişdir:

*Yeni bir nəzəriyyə avstralopitek cinsinin insan nəslinin mənşəyi olmadığını söyləyir... St W573'ü araşdırmağa səlahiyyətli tək qadın tədqiqatçının gəldiyi nəticələr insanın əcdadları ilə bağlı aktual nəzəriyyələrdən fərqli olaraq hominid nəsil ağacını məhv edir. Beləcə bu nəsil ağacında yerləşən insan və əcdadları sayılan primat cinsi böyük meymunlar hesabdan çıxarılır... Avstralopitek və homo növləri (insanlar) eyni budaqda yerləşmirlər. Homo növlərinin (insanların) əcdadları hələ kəşf edilməyi gözləyir. (Isabelle Bourdial, «Adieu Lucy», Science et Vie, may 1999, no. 980, s. 52-62.)*

Amerikanın USA Today qəzetində Tim Frend tərəfindən qələmə alınan bir məqalədə isə insanın əcdadı olaraq göstərilən Lüsi haqqında bu açıqlama verilir:

*Lüsinin elmi adı Australopithecus afarensis. Dövrümüzdə yaşayan Bonobo şimpanzelərinə çox bənzəyir. Kiçik beyin, önə çıxmış üz və iri azı dişləri. Ancaq homonun əcdadı qəbul edilən Lüsinin bu xüsusiyyəti son on ildə gözdən düşdü. Bir çox mütəxəssis insanın mənşəyini Lüsi kimi bir əcdada bağlamanın çox bəsit bir yanaşma olduğunu qəbul edir. (Tim Friend, «Discovery rocks human-origin theories», 21 mart 2003; http://www.usatoday.com/news/science/2001-03-21-skull.htm)*

Bu yazıda Smitsonian Təbiət Tarixi Muzeyi İnsanın Mənşəyi Proqramınınrəhbəri Riçard Pottsun da izahlarına yer verilir. Buna görə Potts və daha bir çox təkamülçü mütəxəssis Lüsinin artıq insanın nəsil ağacından çıxarılmasının lazım olduğunu qəbul edir. (Yenə orada)



# Həzrəti Lut qövmünün pozğunluğu

**«Biz Luta da bir hökm və elm verdik, onu çirkin işlər görən bir məmləkətdən xilas etdik. Həqiqətən, onlar pis, fasiq bir tayfa idilər. Biz onu mərhəmətimizə qovuşdurduq, çünki o, doğrudan da, saleh kimsələrdən idi». (Ənbiya surəsi, 74-75)**

Allah Quranda **«Batildən haqqa tapınaraq üzünü Allah`ın fitri olaraq insanlara verdiyi dinə tərəf tut...» (Rum surəsi, 30)** şəklində buyurur və insanları müəyyən fitrət üzrə yaratdığını xəbər verir. Şeytan isə insanlara Allah`ın yaratdıqlarına dəyişdirmələrini əmr edir («Nisa» surəsi, 119). İnsanı fitrətindən uzaqlaşdırıb hər cür azğınlığa salmağa çalışır. Şeytanın insanları sürüklədiyi azğınlıqların ən bariz nümunələrindən biri isə homoseksuallıqdır. Belə ki, Allah Quranda şeytanın yönləndirməsi ilə hərəkət edib əxlaqsız həyat yaşayan bu insanların vəziyyətini **«...Onlar nə möcüzə görsələr, ona inanmazlar. Onlar haqq yolu görsələr, onu qəbul etməz; azğınlıq yolunu görsələr, onu özlərinə yol seçərlər. Bunun səbəbi isə onların ayələrimizi yalan hesab etmələri və ondan qafil olmalarıdır» (Ərafsurəsi, 146)** şəklində xəbər vermişdir. Bu adamlar Rəbbimizin **«Allah sizin tövbələrinizi qəbul etmək istəyir. Öz nəfsinə uyanlar isə sizi böyük bir əyriliklə sapdırmaq istəyirlər» (Nisa surəsi, 27)** ayəsi ilə də buyurduğu kimi, bütün insanların doğru yoldan azmasını istəyirlər. Quranda bu insanların alacağı əvəz bu şəkildə bildirilir:

**«Onlardan sonra namazı tərk edib şəhvətə uyan bir nəsil gəldi. Onlar da öz əməllərinin cəzasını alacaqlar». (Məryəm surəsi, 59)**

Bu əxlaq azğınlığı tarixdə fərqli insan cəmiyyətləri arasında da müşahidə olunur. Bu

***«Biz Luta da bir hökm və elm verdik, onu çirkin işlər görən bir məmləkətdən xilas etdik. Həqiqətən, onlar pis, fasiq bir tayfa idilər. Biz onu mərhəmətimizə qovuşdurduq, çünki o, doğrudan da, saleh kimsələrdən idi». (Ənbiya surəsi, 74-75)***

cəmiyyətlərdən biri də bütpərəst Lut qövmüdür. Hz.Lut Rəbbimizə könüldən iman edən gözəl əxlaqlı, təvəkkül sahibi mübarək bir peyğəmbərdir. Qövmünü də Allah`dan qorxub çəkinməyə, Allah`ın qadağan etdiyi bu pozğunluqdan vaz keçməyə və Allah`ın rizasına uyğun yaşamağa dəvət etmişdi. Ancaq qövmü Allah`ın xoşbəxt elçisinin dəvətinə düşmənçiliklə cavab vermişdi. Hz.Lut qövmü bu çirkin cəsarət və əxlaqsızlıq üzündən Rəbbimizin əzabına düçar olmuşdu. Quranda Lut qövmünün qarşılaşdığı aqibət belə xəbər verilir:

**«Lutu da peyğəmbər göndərdik. Bir zaman o, öz tayfasına demişdi: «Sizdən əvvəl başər əhlindən heç kəsin etmədiyi həyasızlığı sizmi edəcəksiniz? Siz qadınları atıb şəhvətlə kişilərin üstünə gəlirsiniz. Siz, doğrudan da, həddi aşmış bir tayfasınız!» Lut tayfasının cavabı: «Onları məmləkzətinizdən çıxarın, çünki onlar təmiz adamlardır!» -deməkdən başqa bir şey olmamışdı. Biz onu və ailəsini xilas etdik. Yalnız övrəti həlak oldu. Onların üstünə yağış yağdırdıq. Bir gör günahkarların axırı necə oldu!» (Əraf surəsi, 80-84).**

Açıq-aşkar xəbərdar olunsalar da, azğınlığa davam edən bu insanlar Hz.Lutu və yanındakı möminləri şəhərdən sürgün etməklə hədələmişdilər. Və: **«Onlar təmiz adamlardır» (Əraf surəsi, 82)** -deyərək möminlərə lağ etdiklərini sanmışdılar. Qövmünün bu azğınlığına baxmayaraq, hz.Lut Allah`ın razılığı üçün təbliğinə davam etmişdi.

## Hz.Lutun qövmünü xəbərdar etməsi

«Lut tayfası da peyğəmbərləri təkzib etdi. O zaman ki, qardaşları Lut onlara dedi: «Məgər qorxmursunuz? Şübhəsiz ki, mən sizin üçün etibar olunası bir peyğəmbərəm! Artıq Allah`dan qorxun və mənə itaət edin!» (Şüəra surəsi, 160-163).

Hz.Lut qövmündən elədikləri çirkin həyasızlığa son qoymağı və ona tabe olmağı istəmişdi. O, etdiyi bu təbliğin dərhal ardınca onlardan heç bir əvəz gözləmədiyini, yalnız Allah`ın razılığına nail olmaq üçün səy göstərdiyini bildirmişdi:

«Mən bunun müqabilində sizdən heç bir əvəz istəmirəm. Mənim mükafatım ancaq aləmlərin Rəbbinə aiddir!» (Şüəra surəsi, 164).

Hz.Lut bu sözlərindən sonra qövmünün yaşadığı həyatın nə qədər böyük əxlaqsızlıq olduğunu belə tərif etmişdi:

**«Doğrudanmı, siz başər övladından yalnız erkəklərlə yaxınlıq edirsiniz? Və Rəbbinizin sizin üçün yaratdığı qadınlarınızı tərk edirsiniz? Siz həddi aşan bir camaatsınız!» Onlar dedilər: «Ey Lut! Əgər son qoymasan, mütləq qovulacaqsan!» Lut dedi: «Həqiqətən, mən sizin əməlinizə nifrət edənlərdənəm!» (Şüəra surəsi, 165-168)**

Hal-hazırda bəzi insanlar belə azğınlıqları mümkün və məşru göstərməyə çalışır. Dünyanın dörd tərəfində əxlaqi aşınma və degenarasiyanın



artmasının səbəblərindən biri də budur. Halbuki, müsəlman bütün həyatını Allah`ın bildirdiyi hökmlərə görə müəyyən edir. Allah`ın çirkinlik və həyasızlıq kimi tərif etdiyi bu əxlaqi azğınlıq qarşısında iman sahiblərinin davranışı da hz.Lut kimi olmalıdır.

Lut peyğəmbərin bütün cəhdlərinə hədə-qorxu və hücumlarla cavab verən bu ağılsız və əxlaqsız insanların sayca çox olduqlarına görə, arxayın olduqları da ayələrdən görünür. Dindən uzaq yaşayan insanların bir qismi bu cür yanlış bir nöqteyi-nəzərə sahibdir. Yəni saylarının çox olması onlara bir əminlik hissi verir. Ancaq Rəbbimiz bizə tarix boyunca iman edənlərin sayının həmişə az olduğunu bildirir. Hz.Lut qövmündə iman edənlərin sayı üçün Allah ayədə: **«Lakin orada bir evdən başqa müsəlman tapmadıq» (Zariyat surəsi, 36)** -şəklində buyurur. Ancaq Allah daima möminlərə yardım etmişdir və mühüm olan da budur. Quranda Rəbbimiz səmimi qəlblə iman edən, sadəcə Allah`ın rizasını gözləyən, axirət yurdu üçün saleh işlər görən, İslam əxlaqını insanlar arasında yaymağa çalışan iman sahiblərinin hər zaman qalib gələcəyini vəd edir. Rəbbimizin bu ilahi qanunu yüzilliklər boyunca gerçəkləşmiş, hər zaman azlıqda olan möminlər özlərindən sayca çox olan qövmlərinə qarşı mübarizədə böyük zəfərlər əldə etmişdir.

## Həlakın gerçəkləşməsi

Hz.Lutun qövmünün həlak edəcəyinin xəbəri elçilər tərəfindən ilk öncə hz.İbrahimə bildirilir:

**«Dedi: «Ey elçilər! Sizin işiniz nədir?» Onlar dedilər: «Biz günahkar bir qövmə göndərilmişik. Onların başına gildən daşlar yağdırmaq üçün gəlmişik. Həddi aşanlar üçün sənin Rəbbinin dərgahında xüsusi nişan qoyulmuşdur! Nəhayət, orada olan möminləri çıxartdıq. Lakin orada bir evdən başqa müsəlman tapmadıq». (Zariyat surəsi, 31-36)**

Elçilər hz.İbrahimdən sonra hz.Lutun yanına getmiş və ona da bu həlak barədə xəbər vermişdilər. Müsəlman cəmiyyət isə bu həlakdan qorunacaqdı. Allah Lut qövmünü necə bir əzabla həlak etdiyini belə bildirir:

**«And olsun ki, onlar öz qonaqlarını onlara təslim etməyi tələb etmişdilər. Biz də onları kor etdik "İndi əzabımı və təhdidlərimi dadın!» - dedik» (Qəmər surəsi, 37).**

Tarixçilər Lut qövmünün başına gələn bu



böyük fəlakətin yerinin «Lut gölü» və ya «Ölü dəniz» kimi məlum olan gölün sahilləri olduğunu düşünürlər. Müasir dövrdə İsrailin nəzarəti altındakı Qərbi Şəriyə ilə İordaniya arasında qalan Lut gölünün yanında yerləşən tarixi Sodom və Qomorra şəhərləri hz.Lutun təbliğ etdiyi pozğun camaatın yaşadığı yerlər kimi qəbul edilir. Bölgədə aparılan arxeoloji araşdırmalar Lut gölünün sahillərində yerləşən bu şəhərlərin böyük zəlzələ nəticəsində aşağı çökdüyünü göstərir. Tədqiqatçılara görə, Lut gölünün bir hissəsini yerin dərinliklərinə girən Lut qövmünün qalıqları təşkil edir. (Ətraflı məlumat üçün bax: Harun Yəhya, «Qövmlərin həlakı»)

## Pompey xalqı Lut qövmü ilə eyni aqibəti yaşadı

Pompey Romada əxlaqi degenerasiyanın simvolu idi. Pompey xalqı da eynilə Lut qövmü kimi cinsi azğınlığa yönəlmiş, Allah`ın əmr etdiyi əxlaqa və həyata zidd olan həyat tərzini seçmişdi. Ancaq onların da aqibəti Lut qövmü kimi oldu. Çünki Allah`ın əmrinə qarşı çıxan hər xalq bunun əvəzini mütləq dünyada, ya da axirətdə alır. Bu, Allah`ın bir qanunudur və Allah **«Sən Allah`ın sünnəsində heç bir dəyişiklik tapmazsan!» (Fatir surəsi, 43)** ayəsi ilə bu həqiqəti bizlərə xəbər verir.

Pompeyin həlakı Vezuvi vulkanının püskürməsi ilə baş vermişdir. Vezuvi vulkanı İtaliyanın, xüsusilə də Neapol şəhərinin simvoludur. Təxminən 2000 ildən bəri susqun olan Vezuvi "İbrət dağı» adlandırılır. Məşhur Sodom və Qomorra şəhərlərinin başına gələn fəlakətlə Pompey faciəsi bir-birinə çox bənzəyir. Vezuvinin qərb yamacında Neapol, şərq yamacında isə Pompey şəhəri yerləşir. Təxminən 2000 il öncə baş vermiş lava və kül püskürməsi böyük bir fəlakət olaraq bu şəhərin insanlarını ani şəkildə yaxalamışdı. Fəlakət elə ani olmuşdu ki, hər şey 2000 il əvvəl olduğu kimi qaldı. Sanki zaman donduruldu.

Pompeyin belə fəlakətlə yer üzündən silinməsində, əlbəttə, dərs alınacaq hikmətlər var. Tarixi qeydlər şəhərin yox olmazdan öncə tam bir səfahət və azğınlıq mərkəzi olduğunu göstərir. Ancaq Vezuvinin lavaları bir anda bütün şəhəri xəritədən sildi. Hadisənin ən maraqlı tərəfi isə şəhərin gündəlik yaşayışı içində Vezuvinin qorxunc partlamasına baxmayaraq, heç kəsin qaça bilməməsi və olduğu yerdə donub fəlakətdən bixəbər olması idi. Yemək yeyən bir ailə o andakı kimi eynilə daşlaşmışdı. Pozğunluq əsnasında daşlaşmış bir çox insan tapılmışdı. Daha əhəmiyyətlisi odur ki, bu insanlar arasında eyni cinsdən olanlar, kiçik oğlan və qız uşaqları da vardı. Pompey qalıqlarından çıxarılan daşlamış insan cəsədlərinin bəzilərinin üzləri heç pozulmadan qalmışdı. Ümumi üz ifadəsi çaşqınlıq idi. Çünki bu xalq Allah`ın ayələrində bildirildiyi kimi, birdən-birə yox olmuşdu. Allah bu mövzuda bir şəhər xalqını belə nümunə verir:

**«Onlara ancaq dəhşətli bir səs oldu. Dərhal məhv olub getdilər». (Yasin surəsi, 29)**



# Fosillər təkamülü təkzib edir



## Qızılbalıq kəlləsi

Dövr: Kaynozoy erası, Pleystosen dövrü
Yaşı: 1.8 milyon – 11 min il
Bölgə: Kamlups, Britaniya Kolumbiyası, Kanada

Qızılbalıqların müxtəlif geoloji dövrlərə aid bir çox fosil nümunəsi var. Bu dövrlərdə yaşamış qızılbalıqların hamısı dövrümüzdə yaşayan nümunələri ilə eynidir. Tapılan hər fosil darvinistləri təkzib edərək digər canlı növləri kimi qızılbalıqların da dəyişmədiyini sübut edir.

**Daha ətraflı:**

**www.fosilmuzeyi.com**











## Ciyərli balıq

Dövr: Paleozoy erası, Devon dövrü
Yaşı: 350 milyon il
Bölgə: Miquaşa, Kvebek, Kanada

Ciyərli balıqların dövrümüzdəki nümunələri, əsasən, Afrikada və Cənubi Amerikada yaşayır. Bu balıqlar suların azaldığı dövrlərdə özlərini palçığa basdıraraq həyatlarını davam etdirirlər.

Elmə məlum olan ən qədim ciyərli balıq fosili Devon dövrünə (417-354 milyon il) aiddir. Şəkildə görünən fosil də həmin dövrə aiddir. Təqribən 350 milyon il əvvəl yaşamış ciyərli balıqların dövrümüzdə yaşayanlardan heç bir fərqi yoxdur. Yüz milyon illərdir dəyişikliyə məruz qalmayan ciyərli balıqlar təkamül keçirmədiklərini, yəni yaradıldıqlarını sübut edirlər.

**Daha ətraflı:**

**www.fosilmuzeyi.com**









## Sekvoya budağı

Dövr: Kaynozoy erası, Eosen dövrü
Yaşı: 50 milyon il
Bölgə: Kamlups, Britaniya Kolumbiyası, Kanada

Dünyanın ən böyük ağac növü kimi tanınan sekvoya, eyni zamanda, uzun ömürlüdür. Təqribən 150 metr hündürlükdə 1000 yaşında olan nümunələri də var. Əsasən, Şimali Amerikada yaşayırlar. Fosil nümunələri sekvoyaların milyon illərdir eyni olduğunu, yəni təkamül keçirmədiyini göstərir. Şəkildə görünən 50 milyon illik sekvoya budağı fosilinin dövrümüzdəki nümunələrindən heç bir fərqi yoxdur.









Sekvoya yarpağı

Daha ətraflı:

www.fosilmuzeyi.com






## Ginqko və sekvoya yarpağı

Dövr: Kaynozoy erası, Eosen dövrü
Yaşı: 54-37 milyon il
Bölgə: Kaşe Krik, Britaniya Kolumbiyası, Kanada

Ginqko bitkilər aləmində ən çox nümunəsi olan yaşayan fosillərdən biridir. Ginkqophyta sinfinə aiddir. Elmə məlum olan ən qədim nümunələri 270 milyon illikdir. Şəkildə görünən ginqko yarpağı fosili isə 54-37 milyon yaşındadır. Yüz milyon illərdir eyni olan bitkilər təkamülə meydan oxuyur.



# KÖRPƏLƏR DANIŞMAĞI NECƏ ÖYRƏNIR?

**• İki-üç yaşlı uşaq dil dərsi almadan böyüklər kimi necə cümlələr quraraq danışmağa başlayır?**

**• Danışmaq üçün bədənimizdə hansı proseslər baş verir?**

**• Necə olur ki, zehnimizdəki düşüncələrimiz sözlərə və cümlələrə çevrilir?**

Hər insan müəyyən yaşa çatdıqda danışmağa başlayır. Təxminən hər kəs eyni yaşlarda danışmağa başladığına görə, bu vəziyyət normal görünür. Bu səbəbdən, bəzi insanlar danışmağı adi qabiliyyət kimi qəbul edir və üzərində düşünmür. Halbuki uşağın heç nə bilmədiyi vaxtda birdən-birə danışmağa başlaması böyük möcüzədir. Çünki ən sadə hesab edilən dillərdə belə sözlər kompleks dilçilik qanunları əsasında işlədilir. Dilçilik qanunları isə sözlərə cümlə tərkibində müxtəlif mənalar qazandıran riyazi əlaqələrdir.

## Danışmazdan əvvəl körpələrin beynindəki hazırlıq

Körpələr təqribən 8 aylıq olduqda bütün dillər arasındakı səsləri ayırd edə bilirlər. Danışmağı öyrənməzdən əvvəl isə beyinləri ətraflarındakı səsləri qavramağa başlayır. Beyindəki bu keçidin necə baş verdiyi hələ elmə məlum deyil.

Vaşinqton Universitetində aparılan bir tədqiqat nəticəsində 7-11 aylıq körpələrdə danışıq səslərini əlaqələndirən beyin sahələrinin reaksiya verdiyi görülmüşdür.

Tədqiqat körpənin beyninin danışmağa başlamazdan əvvəl uzun söz əmələ gətirəcək şəkildə necə zəmin hazırladığını göstərir. Bu isə inkişaf üçün keçidə təsir edir.

Körpələrin çoxu 7 aylıq ikən tək-tük sözlər deməyə başlayır. Ancaq bir yaşına keçənə qədər ilk sözlərini deyə bilmirlər. Sadəcə dinləyərkən belə körpələrin beyinlərinin hərəki bölgələrində aktivləşmə olması çox önəmlidir. Çünki bu aktivləşmə sayəsində 7 aylıq körpələrin beyni geridən başa doğru danışılanları təkrarlayır və sözləri demək üçün doğru hərəkətləri etməyə çalışır. Bu sayədə körpələr sözlər deyə bilir.

Təcrübədə körpələr beyin aktivliyini ölçən beyin cihazına oturdulublar. 5, 7, 11 və 12 aylıq hər körpəyə yerli və xarici dildə "da" və "ta" kimi hecalar dinlədilib. Beyin hərəkətləri tədqiqatçılar tərəfindən qeyd edilib. Bundan əlavə, körpələrə ingilis və ispan dillərində səslər də dinlədilib. Tədqiqatçılar bu zaman beyinin eşitmə bölgəsində, broka mərkəzində və beyincikdə aktivlik müşahidə ediblər.

Motor hərəkətlərini planlaşdıran beyin qabığı körpələrin nitq qurmasında mühüm rol oynayır.



**O, Xaliq, yoxdan yaradan, surət verən Allah`dır. Ən gözəl adlar yalnız Ona məxsusdur. Göylərdə və yerdə olanların hamısı Onun şəninə təriflər deyir. O, qüdrətlidir, müdrikdir. (Həşr surəsi, 24)**

Yeddi aylıq körpələrin ana dili olan ingilis dilindən başqa xarici dil olan ispan dilini eşitdikdə də beyində aktivlik meydana gəlmişdir. Bu tədqiqat körpələrin erkən yaşlarda daha əvvəl eşitdiyi və ya eşitmədiyi hər səsə reaksiya verdiyini göstərir.

Tədqiqatçılar "Salam" və "necəsən?" ifadələrindən, yavaş və ibarəli sözlərdən istifadə ediblər, körpələr bu ifadələri və sözləri sintezləməyə çalışıblar. Eşitdiklərini müxtəlif səslər çıxardaraq təqlid ediblər.

Körpələr deyilənlərə cavab qaytarmasalar da, tədqiqatlar onlarla danışmağın nə qədər vacib olduğunu göstərmişdir. Körpələr hələ bir kəlmə belə danışmazdan əvvəl beyinləri onları gündəlik həyatdakı nitqə hazırlayır.

Körpələr hələ danışa bilmədən beyinlərinə söz əmələ gətirmək üçün lazımi əmri Allah verir. Elm adamlarını düşündürən digər maraqlı cəhət isə körpələrin beyninin həmin yaşlarda hər dildə danışılan səsə reaksiya verməsidir. Həqiqətən, bu, böyük möcüzədir. Allah bir ayədə bu qüsursuz sistemi belə bildirir:

Açıqdır ki, nitq öyrənməklə qazanılmır. Bizə bildiyimiz minlərlə sözü, sözlərin əmələ gətirdiyi mürəkkəb cümlə quruluşunu kimsə öyrədə bilməz. Məsələn, danışarkən düzgün cümlələr qururuq. Halbuki dilçilik qanunlarını bilmədən, hətta bəlkə də bir çox cümləni həyatınızda ilk dəfə qurduğunuza baxmayaraq, heç çətinlik çəkmirsiniz. Bu mürəkkəb dilçilik qanunlarını bütün həyatlarını dilləri tədqiq etməyə həsr etmiş dilçilər belə tərif edə bilmirlər.

## Allah`ın öyrətdiyi sözlər

Dilin mənşəyi ilə bağlı bütün elmi kəşflər əsrlər əvvəl Quranda açıqlanmış bir həqiqətə diqqət çəkir: ilk insan olan hz. Adəmə (əs) yer üzündəki bütün canlılardan fərqli olaraq adlar və məfhumlarla düşünmə, bu ad və məfhumları simvollara çevirərək dil vasitəsilə xəbərləşmə qabiliyyətini Allah vermişdir. Bu



həqiqət Quranda belə bildirilir:

**Sənin Rəbbin mələklərə: "Mən yer üzündə bir xəlifə yaradacağam", - dedikdə (mələklər): "Biz Sənə şükür etdiyimiz, şəninə tə'riflər dediyimiz və Səni müqəddəs tutduğumuz halda, Sən orada fəsad törədəcək və qan tökəcək bir kəsmi yaratmaq istəyirsən?"- söylədilər. (Allah onlara:) "Mən bildiyim şeyi siz bilmirsiniz!" – buyurdu. Adəmə bütün şeylərin adlarını öyrətdi. Sonra onları mələklərə göstərərək: "Doğrusunuzsa, bunların adlarını Mənə bildirin!"- dedi. Onlar: "Sən paksan, müqəddəssən! Sənin bizə öyrətdiklərindən başqa biz heç bir şey bilmirik. Bilən Sən, hikmət sahibi Sənsən", - dedilər. O: "Ey Adəm, bunların adlarını onlara bildir!"- dedi. (Adəm) onlara bunların adlarını xəbər verdikdə (Allah): "Mən sizə, göylərin və yerin gözə görünməyən sirlərini və sizin gizlində - aşkarda nə etdiyinizi bilirəm, söyləmədimmi?" – buyurdu. (Bəqərə surəsi, 30-33)**

İnsanın bütün digər canlılardan fərqli olaraq adları bilməsinin səbəbi Allah`ın bu qabiliyyəti ilk insan olan hz. Adəmə (əs) bəxş etməsidir. Allah insanı yaratmış və ona başqa heç bir canlıda olmayan, məfhumlarla düşünmə və nitq qabiliyyətini bəxş etmişdir. İnsanlar üçün yolgöstərici olan Quranda Rəbbimiz bizə məfhumların qarşılığı olan isimlərlə danışmağı öyrətdiyini açıq-aydın bildirir:

Unutmaq olmaz ki, insanın bildiklərini ona öyrədən Allah`dır. "Ələq" surəsinin ilk ayələrində belə buyurulur:

**Yaradan Rəbbinin adı ilə oxu! O, insanı laxtalanmış qandan yaratdı. Oxu! Sənin Rəbbin ən böyük kərəm sahibidir! O Rəbbin ki, qələmlə (yazmağı) öyrətdi. (O Rəbbin ki) insana bilmədiklərini öyrətdi. (Ələq surəsi, 1-5)**

İstədiyimiz sözlərin ağzımızdan çıxması üçün səs tellərinin nə qədər aralı olmasını, nə qədər titrəməsini, ağzımızdakı, dilimizdəki, boğazımızdakı yüzlərlə əzələdən hansının hansı ardıcıllıqda neçə dəfə gərilib-boşalmasını, ciyərlərimizə neçə kub santimetr hava alıb bu havanı hansı sürətlə və intervalla boşaltmağı hesablamırıq. İstəsək də, bunu edə bilmərik! Çünki ağzımızdan çıxan bircə sözün əmələ gəlməsi insanın tənəffüs sistemindən sinir sisteminə, əzələlərdən sümüklərinə qədər bir çox sistemin uyğun işləməsinin nəticəsidir.

Dil qanunlarının sayını cümlələrin sonsuz sayı ilə müqayisə edən məşhur dilçi Liberman dilçilik qanunlarının tam aşkar edilmədiyini bildirir. Halbuki 3 yaşında bir uşaq dilçilərin açıqlaya bilmədiyi qanunlardan istifadə edərək danışır.

## Nitq qabiliyyəti beynimizə yerləşdirilmişdir

Dilin kompleks quruluşu ilə bağlı dilçilərin əksəriyyəti bir fikir ətrafında toplanıblar. Noam Xomskinin öndərlik etdiyi bu fikrə əsasən, uşağın danışması üçün beynində əvvəlcədən yerləşdirilmiş dilə aid xüsusiyyətlər olmalıdır. Xomski nitqin digər bildiklərimizdən fərqli olaraq öyrənilmədən qazanıldığını belə ifadə edir:

Qrammatika və idrak hər kəs tərəfindən, səy göstərilmədən, tez, nizamlı şəkildə sadəcə bir icmanın içində ən az ünsiyyətlə, münasibət və qarşılaşma ilə və yaşamaqla əldə edilir. Xüsusi təlimə və təhsilə ehtiyac yoxdur, əgər bu olacaqsa da, son nəticəyə yardımı məhdud olar... Halbuki, məsələn, fizika biliyi əziyyətli şəkildə nəsillər boyu ciddi çalışaraq, dəqiq təcrübələrlə qazanılır. (Noam



*Açıqdır ki, dil və ona bağlı sistemlər ən incə təfərrüatı ilə birlikdə yaradılmış, insanın xidmətinə verilmişdir. Bu biliyin sahibi nə insanın özü, nə də təsadüflərdir. Bu əsas məfhumları, tələffüz edilən sözləri, simvollarla düşünməyi və bunlara malik olan insanı yoxdan yaradan uca Allah'dır.*

Chomsky, On Language: Chomskys classic works: Language and responsibility and reflections on language in one volume, New Press, 1998, səh.144)

Xomski bu sözləri ilə nitqin öyrənilmədiyini, dilin əsas quruluş vahidlərinin anadangəlmə zehində mövcud olduğunu irəli sürür. Həqiqətən də dil o qədər kompleks quruluşa malikdir ki, əgər bizi buna hazırlayan daxili sistem olmasa, öyrənmək və öyrətmək qeyri-mümkündür.

## Danışmaq üçün bədənimizdə hansı proseslər baş verir?

Bir şey demək istədiyiniz anda beyninizdən gələn bir sıra əmr səs tellərinizə, dilinizə və oradan da çənə əzələlərinizə gedir. Beyinin nitq mərkəzlərinin yerləşdiyi bölgə nitq fəaliyyətinizdə rol oynayan bütün əzələlərinizə lazımi əmrləri göndərir.

Əvvəlcə ağciyərlər isti hava verir. İsti hava nitqin xammalıdır. Hava burundan içəri daxil olur, burun boşluğu, boğaz, nəfəs borusundan sonra bronxlara, oradan da ağciyərlərə keçir. Havadakı oksigen ağciyərlərdə qana qarışır. Bu zaman karbon qazı da xaric edilir.

Ağciyərlərdən geri qayıdan hava boğazdan keçərkən səs telləri adlanan iki toxuma arasından keçir. Bu tellər bir növ pərdəyə bənzəyir və birləşdikləri kiçik qığırdaqların təsiri ilə hərəkət edirlər. Danışmazdan əvvəl səs telləriniz açıq vəziyyətdə olur. Danışdıqda tellər birləşir və nəfəs verdikdə çıxan hava titrədilir.

Ağız və burun quruluşu insanın səsinin özünəməxsus olmasını təmin edir. İnsanlar sözləri ard-arda düzüb danışarkən dil damağa müəyyən miqdarda yaxınlaşıb uzaqlaşır, dodaqlar büzülüb-açılır. Bu proseslərdə bir çox əzələ böyük sürətlə hərəkət edir.

Danışmaq üçün bu proseslərdən hər biri tam baş verməlidir. Bu kompleks proseslər böyük sürətlə və qüsursuz baş verərkən insanın bunlardan xəbəri belə olmur.

# TERRORİZMƏ QARŞI İDEOLOJİ MÜBARİZƏ YOLLARI

Dünyanın qərbindən şərqinə qədər bir çox ölkə terrorizm bəlasından getdikcə daha çox zərər çəkir.

Beynəlxalq problemə çevrilmiş terrorçu cərəyanların təməli ideologiyadır. Bunların bəziləri PKK, "Aydın Yol" (Shining Path) və FARC təşkilatları kimi marksist ideologiyaya əsaslanır. Bəziləri isə neonasistlər, çetniklər və Qızıl Şəfəq kimi radikal sağçı, faşist ideologiyanın tərəfdarlarıdır.

Bu təşkilatlar, əsasən, bir ölkənin ərazisindəki bölgədə müstəqil dövlət qurmağa çalışırlar. Bəzən də haqq tələb etdikləri yad ölkənin torpaqlarını başqa bir ölkəyə qatmağa cəhd edirlər.

Digər terror təşkilatlarının böyük hissəsi dinə əsaslanır. Bu günlərdə gündəmdə olan İŞİD, Əl-Qaidə, Boko Haram bu cür təşkilatlardandır. Bu təşkilatlar İslam əxlaqına daxil edilmiş müxtəlif xurafatlar, heç bir əsası olmayan qadağalar və cəzalandırma metodlarından istifadə edərək hərəkatlar təşkil edir, İslam dininin adından istifadə edərək insanları Quranda yeri olmayan xurafatçı düşüncə tərzi ilə yaşamağa məcbur edirlər.





olub gedən heyvan növü kimi görməyə başlayır, sonra da asanlıqla insan öldürən zalım terrorçuya çevrilirlər.

Bütün dövlətlər terror təşkilatlarının bu fəaliyyətindən xəbərdardır. Bütün təhsil materialları, metodları təhlükəsizlik xidmətinə və polis qüvvələrinə məlumdur. Lakin bu təşkilatlara qarşı mübarizə aparılarkən, əsasən, bu maarifləndirmə sistemini məhv etmək üçün ideoloji mübarizəyə deyil, silahlı hərbi mübarizəyə üstünlük verilir. Halbuki, terror təşkilatlarının ideoloji zemininə qarşı görülən tədbirlərlə döyüşçülərin silahlanmadan qarşısını almaq mümkündür. Hətta təşkilatın yeni üzvlər qazanmasının qarşısını almaq da mümkündür.

## Terror hərəkatları bir ideologiyaya əsaslanır

İstər ideoloji əsaslı, istərsə də dini əsaslı xurafatçı düşüncə tərzi olsun, bütün bu təşkilatlar şiddət yolu ilə fəlsəfələrini hakim etmək məqsədi güdürlər. Müxtəlif xüsusiyyətlərdə olsa da, hamısının ideoloji əsası eynidir. Tətbiq etdikləri terror hərəkatlarının hamısı bir ideologiyaya əsaslanır.

Burada əsas olan təşkilat üzvlərinin silahlı hərəkatlarını doğru hesab etmələrini təmin edən ideoloji maarifləndirmədir. Bu, əsla ləngidilmir və mərhələ-mərhələ fərqli məkanlarda fərqli metodlarla həyata keçirilir. Maarifləndirilən gənclər insanları öldükdə yox

## İdeologiyaya qarşı ideologiya ilə mübarizə

Bəs terror təşkilatlarının ideoloji zəminini necə çökdürmək olar? İdeoloji zəmini top-

tüfənglə məhv etmək mümkün deyil. Bu səbəbdən, dövlətlər təcili olaraq ideologiyaya qarşı ideologiya ilə mübarizə metodu düşünməlidirlər.

Faşizm, kommunizm, materializm, şiddət və terror bir-birindən ayrılmaz bir bütündür. İnsanları üsyana, münaqişəyə, fitnə-fəsada, sevgisizliyə, eqoistliyə və əxlaqsızlığa yönəldən bu ideologiyanın yalan olduğu izah edilmədən, sadəcə hərbi yolla insanlar arasında dostluq və qardaşlığın təsis edilməsi mümkün deyil. İstər faşist, istərsə kommunist olsun, bu təşkilatların üzvləri həyatı mübarizə meydanı hesab edirlər. Birisinə görə münaqişənin səbəbi insanlar arasında sinfi fərqlərdir, digərinə görə irqi fərqlərdir. Həyatı mübarizədən ibarət görən təşkilat üzvləri üçün artıq ailənin, din əxlaqının, namus və şərəfin əhəmiyyəti qalmır. Bu insanlar hər cür azğın ideologiya və cərəyanın ardınca gedirlər.

İdeoloji əsaslı terror hərəkatlarının əvvəlcədən qarşısını almaq üçün gənclərə kommunizm və faşizm kimi bütün cərəyanlar öyrədilməli, ancaq bununla yanaşı, mütləq elmə əsaslanan cavabları da izah edilməlidir.

İdeoloji mübarizə bu günə qədər heç sınanmamış və tətbiq edilməmişdir. Beyni illərlə materialist təhsillə yuyulmuş insana kommunizmin və faşizmin cahillik məhsulu olduğu, bunların heç bir əsası olmayan saxta inanclar olduğu izah edilməlidir. Bütün bunların məntiqsizliyi göstərilməlidir. Bu ideologiyaların saxta olduğu sübut edildikdən sonra ona Allah sevgisini izah etdikdə saxta ideologiyalara bağlılığı dərhal sona çatar. Etdiyinin bir mənası qalmaz. Terrorun onun üçün bir mənası qalmaz. Belə bir insanın beyni artıq fəth edilmişdir. Xüsusilə televiziya və radio yolu ilə ideoloji mübarizəyə üstünlük verilməlidir. İdeoloji əsasını itirmiş hərəkat isə yaşaya bilməz. Dövlətlər bu vəzifəni öz üzərilərinə götürməli və bu vəzifəni həyata keçirən vətəndaş cəmiyyəti təşkilatlarını dəstəkləməlidirlər.





## İslam adından terror tətbiq edən təşkilatlara qarşı maarifləndirmə

İslamın adından istifadə edərək şiddət tətbiq edən terror təşkilatlarına qarşı da ideoloji təşkilatlara qarşı istifadə olunan ideoloji metodun bənzərini tətbiq etmək olar. Ancaq bu təşkilatların təməli fərqli olduğu üçün ideoloji mübarizənin məzmunu da fərqli olmalıdır.

Bu ideoloji mübarizənin əsası təşkilat üzvlərinin düşüncələrindəki yanlışlığı güclü şəkildə ifadə etməkdir. Qurana görə, müsəlmanlar insanları İslam əxlaqına təzyiq və məcburiyyətlə deyil, gözəl sözlə dəvət etməlidirlər. İslam əxlaqında inanc azadlığı olduğunun izah edilməsi ilə bu şəxslər doğru yola çağırıla bilər.

Bütün müsəlmanlara hüquqlarını tələb etmək üçün şiddətin doğru metod olmadığı və bunun İslam əxlaqına tamamilə zidd olduğu izah edilməlidir. Terror hərəkatları ilə İslam əxlaqının müdafiə edilmədiyi, əksinə, İslam düşmənlərinin sayının artacağı üçün müsəlmanlara daha çox zərər verəcəyi izah edilməlidir.

Təhsil müəssisələrində terror təşkilatlarının ideoloji əsasına qarşı dərslər tədris edilməli, kitablar oxudulmalı, konfranslar və akademik iclaslar təşkil edilməlidir. Ancaq bu yolla terrorizm yer üzündən tamamilə silinə bilər. Belə bir metod terrorizm bataqlığının əmələ gəlməsinin qarşısını alar.

# Əxlaqi təmizlik

## minaların təmizlənməsi qədər vacibdir

Yanvar ayının soyuq günü idi. Mirnes və əmisi oğlu Nedzad Seljuble kəndində birlikdə meşəyə odun kəsməyə getmişdilər. Böyük partlayış baş verdi, ardınca qısa səssizlik oldu. Partlayan mina idi. Mirnes qollarından, Nedzad isə ayaqlarından ağır yaralanmışdı... Mirnesin ayağındakı əzələ toxuması qoluna tikildi, indi qollarını işlədə bilir. Ancaq Nedzad partlayışdan bir neçə saat sonra xəstəxanada həyatını itirdi...

Bosniyada müharibə təxminən 20 ildir ki qurtarıb. Ancaq müharibə zamanı torpağa basdırılan minalar partlayaraq hələ də can alır. Bu partlayışlarda 237-si uşaq olmaqla, 1000-dən çox insan həyatını itirib. 1700 nəfər yaralanıb. Mina təmizlənməsi zamanı 46 mina təmizləyən mütəxəssis həyatını itirib, 37 nəfər yaralanıb.

Təxminlərə görə Bosniyada xalqın yarısı mina partlayışlarının baş verdiyi bölgələrdə yaşayır. Müharibədən sonra ölkədə 1670 mina partlayıb. Ölkədə hal-hazırda 1340 km2-lik sahədə partlamağa hazır halda torpağa basdırılmış 200 min ədəd mina var. 920 min nəfər minalanmış ərazilərdə hər gün ölümlə üz-üzə yaşayır.

Əslində, minalanmış əraziləri göstərən xəritələr var. Ancaq may ayında Bosniyada baş verən sel bu xəritələri yararsızlaşdırıb. Sel və bundan qaynaqlanan torpaq sürüşmələrinə görə ölkənin şimal-şərqində basdırılmış minalar yerlərini dəyişib. Bəzi minalanmış ərazilər, bəlkə də 100-200 metr qədər sürüşüb, bəziləri isə suyun altında qalıb və yerləri məlum deyil. Bu səbəbdən, göbələk toplayan bir bosniyalı qadın və ya yanacaq ehtiyacını təmin etmək üçün odun toplayan uşaq təhlükəsiz hesab etdiyi ərazidə minaya ayaq basaraq həyatını itirə bilər. Bosniya üçün təhlükə artıq əvvəlkindən də böyükdür.

"Mina təmizləmə mərkəzi" (BH MAC) təşkilatının təşkil etdiyi minaların torpaqdan çıxarılıb ərazilərin təmizlənməsi layihəsi var. Bosniyadakı minalanmış ərazilərin 2019-cu ilə qədər təmizlənməsi planlaşdırılır. Ancaq bu, olduqca çətin layihədir. Minaların təmizlənməsi üçün təqribən 300 milyon avro lazımdır və bu pulun təmin edilməsində problemlər var. Bu isə daha çox sayda məsum insanın minaya düşərək ölməsi deməkdir.

300 milyon avro böyük məbləğ kimi



görünə bilər, ancaq bir çox insanın əhəmiyyətsiz xərclərini topladıqda bu məbləğdən daha böyük olması da düşündürücüdür. Məsələn, çox zəngin olmayan Türkiyədə belə bu il xarici ölkəyə turizm məqsədilə səyahət edənlərin xərcləri 1.5 milyard avrodur. Türkiyədə yeyilməyərək israf edilən çörəyə görə ölkə iqtisadiyyatının itkisi 700 milyon dollar dəyərindədir. Yəni Türkiyədə 6 ay çörək israf edilməsə, buradan edilən qənaətlə Bosniyadakı minaların təmizlənməsi mümkündür. Müxtəlif sahələrdə müxtəlif ölkələrdən misallar verilə bilər.

Bu statistik məlumatlardan da göründüyü kimi, bir çox ölkə, əslində, əsas ehtiyacını təmin etmək üçün mənbələrə malikdir. Varlı ölkələrdə bəzən istifadə olunmadığı üçün israf edilən mənbələr ehtiyacı olan insanlara çatdırılmır.

İnsanların bir qismi imkanlarından düşüncəsiz şəkildə istifadə edirlər. Bu insanlar əllərində olanın dəyərini bilmədikləri kimi əsla yoxsullaşmayacaqlarından sanki əmindirlər. Halbuki bir gün yoxsul, yardıma möhtac vəziyyətə düşə bilərlər. Ancaq bir çoxu gündəlik işlərin içində bu həqiqəti tamamilə unudaraq yaşayır. Dünyada aclıqdan əziyyət çəkən, ehtiyac içində olan milyonlarla insanı bir an belə düşünmədən həyatını davam etdirir.

Dünyanın bir guşəsində bir ərəb şeyxi 300.000 dollar verib evdə bəsləmək üçün şahin alır, həmin pula Bosniyada 1.340.000 m2-lik ərazini minadan təmizləməyin mümkün olduğunu düşünmür.

Bu yanlış əxlaq anlayışının səbəb olduğu sıxıntıları aradan qaldırmaq mümkündür: verilən hər nemətdən doğru yerdə istifadə edib-etmədiyinə görə məsuliyyət daşıyacağını bilən nəsil yetişdirmək. Vicdanlı insan israf etməz; əlində olan imkanlardan düşünərək istifadə edər və ehtiyacından artıq qalanı yoxsullara, yardıma ehtiyacı olanlara paylayar.

Gözəl əxlaqlı, ağıllı insanlar israfçılıq etdikləri xərcləri azaldaraq praktik yollarla bir çox problemi asanlıqla həll edə bilərlər. Bu yolla dünyanın müxtəlif bölgələrində yoxsulluq aradan qaldırılar, maddi imkansızlıqdan yaranan problemlər həll olunar. Bu cür məsələlərdə dünyanın malik olduğu potensialı – din, dil, irq ayırd etmədən - ən xeyirli sahələrə israfın qarşısını tamamilə alaraq ən səmərəli şəkildə istiqamətləndirmək əsasdır.

# ANCAQ ALLAH SEVGİSİ
## QADINLARA QARŞI ŞİDDƏTİN HƏLL YOLUDUR

Qadına qarşı şiddət 21-ci əsrin ən böyük sosial problemlərindən biridir. Beynəlxalq təşkilatlar hər il bu problemin psixoloji və mədəni səbəblərini, cəmiyyətə təsirini və qadında meydana gətirdiyi travmaları araşdırır. Beynəlxalq təşkilatlar qadına şiddətə qarşı hüquqi sanksiyaları yenidən tənzimləyərək bu problemin qarşısını almağa çalışır.

Qadına şiddətin əsas amilləri iqtisadi böhran, həyat keyfiyyəti və təhsil səviyyəsi deyil. Son rəsmi anket sorğuları Avropada qadına böyük şiddət tətbiq olunduğunu göstərir.

Avropa Birliyi Əsas Hüquqlar Agentliyi (FRA) 28 Avropa ölkəsindən 18-72 yaş arası 42000 qadınla geniş sorğu keçirmişdir. Hesabata əsasən, ən çox şiddətin baş verdiyi ölkə 52%-lə Danimarkadır. Bu ölkədən sonra 45% ilə Hollandiya və 44 % ilə Fransa gəlir. 28 ölkədə orta nisbət 33%-dir.

Hesabatda verilən məlumatlara əsasən, hər 10 qadından biri 15 yaşından etibarən cinsi şiddətə və hər 20 qadından



biri təcavüzə məruz qalmışdır. Bundan başqa, hər 5 qadından biri keçmiş və indiki ərindən şiddət görür. Bu faktlara baxmayaraq, qadınların sadəcə 14%-i ərindən və 13%-i kənar şəxslərdən gördükləri şiddətə görə rəsmi orqanlara müraciət etmişdir.

2011-ci ildə ABŞ hökumətinin apardığı araşdırmalara görə, hər 4 qadından birinin şiddətə məruz qaldığı üzə çıxmışdır. 29 milyon qadın sevgilisi və ya əri tərəfindən fiziki zorakılığa məruz qalmışdır. Qadınlar ərlərinin onlara boğmağa çalışdığını, döydüyünü, bıçaqladığını və silahla vurduğunu deyirlər. ABŞ-da hər 15 dəqiqədə bir qadın təcavüzə məruz qalır.

Araşdırmaların aparıldığı ölkələrə baxdıqda qəribə, düşündürücü nəticə ortaya çıxır. Danimarka, Hollandiya, Fransa və ABŞ kimi ölkələr rifah səviyyəsi çox yük-sək olan ölkələrdir. Bu isə göstərir ki, iqtisadi zənginliklə və ya sadəcə məlumat yükləyən, lakin insanların vicdanına xitab etməyən təhsil sistemləri ilə şiddət aradan qalxmır.

Qadına şiddətin konkret nümunələrini sənət adamları arasında və prestijli iş sahələrində də görmək mümkündür. Amerikalı müğənni Rihanna 2009-cu ildə sevgilisi Kris Braun tərəfindən döyülmüşdü.

Ferra Fosett, Uitni Hyuston, Dayan Leyn, Robin Qivens kimi sənətçilər də məşhur həyat yoldaşları tərəfindən şiddətə məruz qalıblar. Bunlar hələ mediaya əks olunan hadisələrdir. İngiltərədə bir həkim 2007-ci ildə arvadını ölümcül döymüş, ancaq ətrafı tərəfindən yaxşı insan kimi tanındığına görə

hakim ona həbs cəzası verməmişdi.

Son əsrdə olduğu kimi dövrümüzdə də qadına şiddətin əsas səbəblərini sosioloqlar və psixoloqlar elmi cəhətdən araşdırır. Bu araşdırmalarda kişilərin təbiəti, spirtli içki və narkotik maddədən istifadə kimi bioloji səbəblərlə uşaqlıqda şiddətə məruz qalma və bundan törəyən psixoloji pozuntular qadına qarşı şiddətin elmi faktları kimi irəli sürülür. Şiddətin kişinin təbiətində olduğu, kişi üçün güc, cəsarət, enerji mənasını verdiyi kimi çox səthi nəzəriyyələr irəli sürülür. Ancaq şiddətin qarşısı alına bilmir...

Əlbəttə, akademik araşdırmalar və elmi nəticələr qadına qarşı şiddətin qarşısını almaq üçün mühüm faktlar verir. Lakin bu araşdırmaların və görülən tədbirlərin kifayət etmədiyi aşkardır və tezislərin çoxunun yanlış olduğunu dövrümüzdə qadına şiddətin dərəcəsindən görmək mümkündür. Gəlir və təhsil səviyyəsinin yüksək olması qadına qarşı şiddətin qarşısını almır və gəlir və təhsil səviyyəsinin aşağı olması da qadına qarşı şiddətə səbəb deyil.

Həll yolu üçün problemin əsas mənbəyini tapmaq lazımdır. İllərlə insanlara təlqin edilən materializm və nəticədə də ortaya çıxan inancsızlıq cəmiyyətdəki şiddətin kökündəki əsas səbəbdir. Çünki insanlar kainatın, təbiətin, canlıların yaradanı olduğunu, hər kəsin yaşamaq hüququ olduğunu düşünmür. Eqoist, təkəbbürlü, öz mənfəətini düşünən insanlar kifayətlənməmə hissinə qapılmağa başlayırlar. Bu da cəmiyyətdə vəhşicəsinə sahiblənmə, qısqanclıq, sevgisizlik və nifrət duyğusunu artırır. Şəfqət, mərhəmət və anlayışın yerini münaqişə



tutur. Haqlının deyil, güclünün həyatda qalacağı inancı dünyanı sevgisizlik cəhənnəminə çevirir.

Öz-mərkəzli, partlamağa hazır bomba kimi yaşayan insan modeli, zəngin də olsa, bir neçə universitet bitirmiş də olsa, pozulmuş təbiətindəki şiddət mədəniyyətini heç cür tərk edə bilmir. Eqoistlik və sevgisizlik fərdləri özündən başqasına dəyər verməməyə sövq edir. Sadəcə şəxsi mənfəət üçün birləşən qadınla kişi zaman ərzində bir-birinə nifrət edir və nəticədə, kişiyə nisbətən daha zərif olan qadınlar ciddi şəkildə şiddətə məruz qalır. Ən gözəl evlər bir anda qadın üçün həbsxanaya çevrilir.

Qadın Allah`ın dünyadakı ən gözəl təcəllisidir və çox xüsusi varlıqdır. Allah qorxusu və Allah sevgisi olan bir insan qarşısındakı qadını Allah`ın yaratdığını bildiyinə görə ona böyük sevgi və hörmət bəsləyər. Allah qorxusu olan kişi qadına ən kiçik incidici söz deməz və onu bütün imkanları ilə qoruyar.

Beynəlxalq təşkilatlar xüsusilə əxlaqi təlimin və Allah sevgisinin üzərində dayanmalıdırlar. Qadını incitməyin kainatı yaradan Allah`ın rizasına uyğun olmadığı və nəticədə də Allah`ın rizasını itirmək qorxusu insanlarda formalaşdırılmalıdır. Bu mövzuda məktəblərdə, universitetlərdə seminarlar və konfranslar təşkil oluna bilər. Gənclərə Allah`ın varlığı izah edilməli, Allah`ın şiddəti və eqoizmi haram etdiyi vurğulanmalıdır. Sevginin, şəfqətin və mərhəmətin bütün dünyaya hakim olması ilə qadına şiddət tamamilə aradan qalxar və qadın sevgisi bütün dünyaya yayılar.

# Uşaqlar Müharibələrlə deyil, Sevgi ilə böyüməlidir



**Bu gün dünya əhalisinin böyük hissəsi müharibələr, aclıq, qıtlıq, yoxsulluq, zülm, işgəncə, haqsızlıq, istismar, qəddar münasibət kimi səbəblərə görə əziyyət, sıxıntı içində yaşayır. Şübhəsiz ki, sıxıntı içində olan insanlar arasında ən çox əziyyət çəkən uşaqlardır.**

Dünya ictimaiyyəti uşaqların ölməsinə, evlərin bombalanmasına, milyonlarla insanın evlərindən məhrum olmasına, qısası, müharibəyə bir növ alışıb... İnsanlar müharibələrə, münaqişələrə alışıb, yaxud zorla alışdırılıb... Hətta vəziyyət elə yerə çatıb ki, hər gün başlıqlarda verilən bombardman xəbərləri, qan içində əziyyət çəkən qadınların, uşaqların şəkilləri insanların böyük əksəriyyətinə adi gəlməyə başlayıb. Halbuki, o şəkillərdə qan içində əziyyət çəkən uşaqlar eynilə dünyanın başqa yerindəki uşaqlar kimi ata-analarının göz bəbəyidir... Ancaq yaşadıqları mühit digər uşaqlardan və körpələrdən çox fərqlidir. Onlar yoxsulluğun, zülmün, müharibənin, qıtlığın, aclığın içində doğulur və qısa müddət sonra bu dünyadan köçüb gedir və ya şikəst qalırlar. Bu cür hadisə olmasa belə, çoxu aclıq, müharibə, itkilərlə uşaqlıq dövrlərini yaşamadan böyüyürlər. Hələ topla oynamadan bombalardan qaçmağı, bəyənmədiyi yemək üçün nazlanmaq əvəzinə tapdığını yeməyi, sevgi əvəzinə nifrəti öyrənirlər. Ən pisi isə odur ki, bu vəziyyət adiləşib, sülhə çağıranlar, sülh üçün həll yolu axtaranlar tənqid edilirlər. Düşündürücü olan da budur ki, bu qrupun içində müsəlmanlar da var...

Statistikaya görə, dünyada yaşayan təqribən 2 milyard uşaqdan 600 milyonu, yəni dünyadakı uşaqların 30%-i yoxsulluqdan əziyyət çəkir. Əlbəttə, bu problem aclıq, sağlamlıq problemləri, epidemiyalar, təhsilsizlik kimi problemləri də özü ilə gətirir. Dünyada 150 milyona yaxın uşaq heç məktəbə getmir. Silahlanma, istismar, müharibələr və münaqişələrdən ən çox zərər çəkən kütlələrdən biri uşaqlardır. Dünya səviyyəsində 600 milyona yaxın uşaq təhlükəli



döyüş bölgələrində yaşayır. Nəticədə, hər il milyonlarla uşaq həyatını itirir və ya şikəst qalır, qalanları isə həyatını əzab-əziyyət və bədbəxtlik içində keçirir. Bu günə qədər aclıq, xəstəlik, baxımsızlıq səbəbi ilə ölən uşaqların sayı milyon-larladır.

## Uşaq əsgərlər

Bu gün dünyada 350-400 minə yaxın uşaq əsgər var. Təkcə 90-cı illərdəki silahlı münaqişələrdə 2 milyondan çox uşaq ölüb, 6 mil-yondan çox uşaq ağır yaralanıb və ya şikəst qalıb. Hər il 8-10 min uşaq minaya düşərək ölür və ya şikəst qalır.

Müharibədə işti-rak etməyə məcbur edilən uşaq əsgərlər qeyri-kafı qidalanmadan yaranan xəstəliklərə görə həyatını itirir. Vitamin çatışmazlığından yaranan xəstəliklər, vəba, malyariya ən geniş yayılmış xəstəliklərdəndir.

Somali, Myanma, Cənubi Sudan da daxil olmaqla, 8 ölkədə uşaqlar zorla əsgər edilir. ABŞ, İngiltərə, Avstraliya və Kanadada isə 18 yaşdan aşağı uşaqları əsgərə aparmaq sərbəstdir. 23 döyüş bölgəsində 50-dən çox terror təşkilatı uşaqları döyüşməyə məcbur edir. Qəbilə adət-ənənələri, vətəndaş müharibəsi və yoxsulluq uşaqların əsgər edilməsində başlıca amillərdir.

Uşaq əsgərlərdən istifadə edən bölgələrin başında Afrika gəlir. Afrika qitəsindəki bütün döyüş bölgələrində uşaqlar döyüşməyə məcbur edilir.

Konqo Demokratik Respublikası bu sahədə ən pis ölkədir. 90-cı illərdə Konqoda baş vermiş vətəndaş müharibəsində 100 mindən çox əsgər uşaq həyatını itirib. Liberiya vətəndaş müharibəsində də 50 minə yaxın uşaq əsgər həlak olub. Kot-d`İvuar Respublikasında vətəndaş müharibəsində keçmiş prezidentin tərəfində vuruşan 200 uşaq həlak olub.

Uqanda Müqavimət Ordusunda 10 minə yaxın uşaq əsgər var. Cənubi Sudandakı vətəndaş müharibələrində həm hökumət, həm də müxalifət uşaq əsgərlərdən istifadə edir. Mərkəzi Afrika Respublikasında 6000, Seleka qruplaşmasında 2000 uşaq əsgər var. Anti-Balaka yaraqlıları də uşaq əsgərlərdən istifadə edir. Syerra-leonedə vətəndaş müharibəsində 1000 uşaqdan əsgər kimi istifadə edilmişdi. İnsan Haqları Müşahidə Təşkilatına əsasən, Boko Haram hərəkatında istifadə edilmək məqsədilə uşaq əsgər yetişdirilir. Müxtəlif şəbəkələr də Qərbi Afrikada vətəndaş müharibələrində istifadə etmək məqsədilə terror təşkilatları üçün uşaq əsgərlər satır. Bu uşaqlardan eyni zamanda ucuz işçi qüvvəsi kimi də istifadə edilir. Məsələn, minlərlə uşaq almaz mədənlərində işlədilib.

## Yaxın Şərqdəki müharibə və döyüşlər ən çox uşaqlara təsir edir

İraq, Suriya, Fələstin, Əfqanıstan kimi ölkələrdə illərdir davam edən müharibə və qarşıdurmalarda ən böyük zərəri yenə uşaqlar çəkir. Suriya vətəndaş müharibəsinin uşaqlara təsir etməsi bir mənbədə belə bildirilir:

"İnsan Haqları Müşahidə Təşkilatının (Human Rights Watch) 23 iyun 2014-cü il tarixli hesabatına əsasən, Azad Suriya Ordusu, Nüsra cəbhəsi, İslami Cəbhə kimi təşkilatlar Suriya hökumətinə qarşı uşaq döyüşçülərdən istifadə edir. İŞİD kimi təşkilatlar da uşaqlara silahlı təlim keçir və onlardan intihar hücumlarında istifadə edir.

Bundan əlavə, uşaqlar snayperçi kimi təlimləndirilir və cəbhələrə silah-sursat daşıyırlar. Hesabatda kürd nəzarəti altındakı bölgələrdə də uşaqların cəbhəyə göndərildiyi bildirilir.



Suriyalı Zorakılığı Müşahidə Mərkəzi 2011-ci ildən etibarən ölən döyüşçü oğlan uşaqlarının sayının 194 olduğunu bildirmişdi. İraqda da eyni mənzərə hakimdir. BMT-nin hesabatına əsasən, 5.5 milyon iraqlı uşaq əsas ehtiyaclarından məhrumdur. ABŞ işğalından etibarən 6 milyon uşaq yetim qalıb, minlərlə ailə uşaqlarını itirib. "Iraq Body Count-IBC"nin faktlarına əsasən, işğal müddətində 3.290.018 iraqlı uşaq şikəst qalıb və ya həyatını itirib. Son 5 ayda ölən uşaq və gənclərin sayı 700-ə çatır. Bundan əlavə, İraqda hər il 35.000 körpə ölür və uşaqların ¼ -i qeyri-kafı qidalanmaya görə fiziki və əqli cəhətdən inkişaf etmir.

UNICEF də İraqda 2008-2010-cu ilərdə 900-ə yaxın uşağın gündəlik zorakılıq hadisələrində öldüyünü, 3200 uşağın da yaralandığını açıqlayıb. Son dövrdə İŞİD-in türkmənlər, yezidilər kimi bir çox bölgə xalqına etdiyi hücumlar uşaq ölümlərinin artmasına səbəb olur.

Ölüm, yaralanma, şikəst qalmadan başqa, İraqda uşaqları gözləyən digər təhlükə də uşaq quldur dəstələridir. Şəxsiyyət vəsiqələri dəyişdirilən uşaqlar 400-10 min dollara satılır. Bunların bir qismi uşaq porno qruplarının əlinə düşür (mənbə: http://sosyal.hurriyet.com.tr/Yazar/81/Verda-ozer/41152/Turkiye-nin-vakti-geldi )

İsrailin Qəzza əməliyyatında da ən çox itki verən uşaqlar oldu. İki tərəfə cəmi 8 milyard dollar ziyan vuran əməliyyatlarda 467 fələstinli uşaq həyatını itirdi, 3009 uşaq yaralandı.

Əfqanıstanda isə uşaqlar səfalət içindədir. Hədsiz yoxsulluq və mənfi iqlim şərtləri əfqanların aclıqdan əziyyət çəkməsinə səbəb olur. Qida çatışmazlığı ən çox kiçik uşaqların inkişafında qalıcı zərərlərə səbəb olur. Əfqan hökumətinin və BMT-nin faktlarına əsasən, ölkədəki uşaqların 55%-i qeyri-kafı qidalanmaya görə inkişafdan geri qalır və bərpa edilməz zərərlər çəkir. Bu, eyni zamanda, ölkənin gələcəyi üçün ciddi fəlakət deməkdir.

Uşaqların dünyanın hər yerində sevgi ilə böyüməsi üçün ictimai şüurun formalaşmasına ehtiyac var. Dünya səviyyəsində bir an əvvəl sevgi, sülh, qardaşlıq, ədalət, mərhəmət, şəfqət yayılmalıdır.

Unutmayaq, müharibələrdə ölən uşaqlar, əslində, bütün cəmiyyətin uşaqlarıdır. Hamımız onların ataları, analarıyıq. Onların həsrətini çəkdiyi sevgini, şəfqəti onlara hər kəs verə bilər. Onları hər kəs öz uşaqları kimi sevə bilər. Maddi-mənəvi bütün ehtiyaclarını təmin edə bilər. Bunun üçün insan sadəcə vicdanının səsinə etinasız yanaşmamalıdır.

## Səmimi iman gətirənlər yardım gözləyən insanların səsinə biganə qalmazlar

Allah`a iman gətirən və bütün həyatını Quran əxlaqı ilə yaşayan insanlar üçün ətraflarında



baş verən hər hadisədə böyük hikmətlər var. Çünki Allah hər hadisəni bir səbəblə yaradır, insanları da davranış və rəftarları ilə sınayır. Hər imanlı insanın üzərinə düşən vəzifələr var. Allah`ın varlığını və birliyini təbliğ etmək, insanları pis işlərdən çəkindirmək, yaxşı işlər görməyi əmr etmək, Allah`ı inkar edən hər cür cərəyana qarşı fikri mübarizə aparmaq.

Beləliklə, dinin layiqincə təbliğ edilməsi ilə güclü vicdanı olan, Allah`dan qorxan cəmiyyət formalaşar, dinsizlikdən qaynaqlanan problemlərin həlli öz-özlüyündən aradan qalxar.

Dövrümüzdə ən əsas mübarizə dini inkar edən materialist fəlsəfəyə qarşı ideoloji mübarizə olmalıdır. Əlbəttə, bu mübarizə Quranda tərif edilən sülhpərvər və uzlaşma üslubu ilə aparılmalıdır. Nəticədə, ideoloji əsası süqut edən bütün fəlsəfi cərəyanlar bir-bir aradan qalxar. Allah **"Xeyr, Biz haqqı batilin üstünə atarıq və o da onun işini bitirər. Bir anda (batilin) yox olub getdiyini görərsiniz. (Allah`a) aid etdiyiniz sifətlərə görə vay halınıza!" (Ənbiya surəsi, 18)** ayəsi ilə bizə haqqın qarşısında batilin mütləq məhv olacağını bildirir.

Bu səbəbdən də din Quran əxlaqından uzaq olan bütün insanlara təbliğ edilməli, insanlar dinsizliyin nəticəsi olan qaranlıq dünyadan çıxmağa təşviq edilməlidirlər. Məzlumlara yardım əli uzadılmalıdır. İnananlara bu şərəfli vəzifəni bir daha xatırlatmaq, dünyada baş verən qarşıdurmaları, zülm görən insanları, qadınları, uşaqları, məzlum xalqların vəziyyətini düşündürmək baxımından bu mövzu çox böyük əhəmiyyət daşıyır.

## Uşaqların üzünün güləcəyi, Quran əxlaqının hakim olacağı dövr Mehdiyyət dövrüdür

Axırzamanın güclü fitnəsində bu qədər fəlakət, əzab və sıxıntının içində olan məzlum uşaqlar da bütün insanlar kimi hz. Mehdinin (əs) gəlişi ilə əsl mənada xilas olacaqlar. Layiq olduqları sevgi, şəfqət, mərhəmət, xoşbəxtlik, rifah, sevinc və əmin-amanlığı hz. Mehdinin (əs) mənəvi liderliyi altındakı İslam birliyində tapacaqlar.

Hz. Mehdinin (əs) dəccaliyyətin iki qolu olan darvinist-materialist ideologiyanı və xurafatı dünya səviyyəsində elmi yolla aradan qaldırması ilə uşaqlar şeytanın qan, vəhşilik, zülm, amansızlıq, ədalətsizlik, haqsızlıq, istismar, eqoizm və mənfəətpərəstlik üzərində qurulmuş fitnəsindən xilas olaraq İslamın xeyir-bərəkətinə qovuşacaqlar. Qorxu, ölüm, zülm, yoxsulluq, aclıq, təhlükə, səfalət və cəhalət günləri geridə qalacaq.

Ədaləti, paylaşmağı, yoxsula, yetimə, yolda qalmışa malından paylamağı, qardaşının nəfsini öz nəfsindən üstün tutmağı, ehtiyacından artıq qalanı Allah yolunda sərf etməyi nəsihət edən Quranın xeyir-bərəkəti içində dünyada ən mükəmməl həyat yaşanacaq.



# Payızda yarpaqların tökülməsinin ardındakı hikmətlər

- **Ağaclar nə üçün yarpaqlarını tökür?**
- **Yarpaqların tökülməsinin hikmətləri nələrdir?**

Bitkilər üçün, xüsusilə qida hasil edən yarpaqlar üçün günəş işığı çox vacibdir. Payızın gəlməsi ilə havalar soyumağa, gündüzlər qısalmağa başlayır və Yer kürəsinə gələn günəş işığı azalır. Bu azalma bitkilərdə bəzi dəyişikliklərə səbəb olur və yarpaqlarda yaşlanma proqramı adlanan yarpaq tökülməsi başlayır. Bir çox insanın əhəmiyyət vermədiyi, hətta qəflət gözü ilə baxdığı bu hadisə, əslində, heyranedici və möcüzəvidir.

## Yarpaq tökülməsi ağaclar üçün əhəmiyyət daşıyır

Soyuq havalarda torpaqdakı su getdikcə qatılaşır və ağacın kökləri suyu sora bilmir. Lakin yarpaqların tərləməsi, havanın soyumasına baxmayaraq, davam edir. Suyun azaldığı dövrdə daima tərləyən yarpaqlar bitki üçün artıqlıq təşkil edirlər. Onsuz da yarpaqların hüceyrələri soyuq qış günlərində donmaya məruz qalıb parçalanacaq. Ona görə, ağaclar qış gəlməzdən əvvəl yarpaqlarını tökürlər, beləliklə, onsuz da məhdud olan su ehtiyatlarını əbəs yerə sərf etmirlər.

Ağaclar yarpaqlarını tökməzdən əvvəl yarpaqdakı bütün qida maddələrini sormağa başlayırlar. Məqsəd kalium, fosfat, azot kimi maddələrin düşən yarpaqlarla birlikdə məhv olmasının qarşısını almaqdır. Bu maddələr ağac qabığının təbəqələrinin və gövdənin ortasından keçən özəyə göndərilir və burada toplanır. Qida maddələrinin özəkdə toplanması ağacın bu maddələri asanlıqla sormasına kömək edir.

Ağaclarının yarpaqlarını tökməsinin başqa səbəbi ağaclarda heyvanlardakı kimi ifrazat sisteminə bənzər ifrazat sisteminin olmasıdır. Bildiyimiz kimi, hər orqanizm maddələr mübadiləsi nəticəsində tullantı maddələr hasil edir. Bu tullantı maddələr toplandıqda zəhərli olduğuna görə orqanizmdən xaric edilməlidir. Bitkilərdə insanlarda və ya heyvanlardakı kimi ifrazat sistemi yoxdur. Ona görə, maddələr mübadiləsinin tullantıları yarpaq hüceyrələrində vakuol adlanan orqanoidlərdə kristal formada toplanır. Yarpaqların hər payız tökülməsi ilə bitkilər bu tullantı



maddələrindən xilas olurlar.

Allah bitkilərdə yarpaq tökülməsi kimi mükəmməl möcüzəvi sistem yaratmışdır. Rəbbimiz yaratdığı canlılardakı bu cür sistemlərlə yaratmada heç bir ortağının olmadığını, sonsuz qüvvət sahibi olduğunu bizə tanıdır.

**Allah`ı qoyub, sənə nə bir fayda, nə də bir zərər verə bilən şeylərə yalvarma. Əgər belə etsən, sözsüz ki, zalımlardan olarsan. Əgər Allah sənə bir zərər toxundursa, bunu Ondan başqa heç kəs aradan qaldıra bilməz. Əgər sənə bir xeyir diləsə, heç kəs Onun lütfünün qarşısını ala bilməz. O, bunu Öz qullarından istədiyinə nəsib edər. O, bağışlayandır, rəhmlidir. (Yunis surəsi, 106-107)**

Kənardan baxdıqda adi fiziki proses kimi görünən yarpaq tökülməsi, əslində, bir çox kimyəvi prosesin ardıcıl baş verməsi ilə meydana gəlir. Yarpaq tökülməsi hər yarpağın saplağı ilə budaq arasındakı hissədə baş verən kompleks proseslər nəticəsində baş verir. Hər payızda eyni prosesin milyon illərdir baş verməsinə insanlar alışa bilərlər. Halbuki, ağaclar yarpaqlarını tökərkən hər yarpaqda bir sıra mürəkkəb kimyəvi proseslər baş verir.

Yarpaq ayasındakı hüceyrələrdə fitoxrom adlanan bitkilərə rəng verən işığa həssas molekullar var. Gecələrin uzanması ilə bitkilərin yarpaqlarına daha az günəş işığı gəldiyini bu molekullar bilir. Fitoxromlar bu dəyişikliyi hiss etdikdə yarpağın içində müxtəlif reaksiyalar gedir və yarpağın yaşlanma proqramı başladılır.

Yarpaqlardakı yaşlanmanın ilk işarələrindən biri yarpaq ayası hüceyrələrində etilen hasil edilməsidir. Etilen qazı yarpağa yaşıl rəng verən xlorofili məhv edir. Başqa sözlə, ağacların yarpaqlarındakı xlorofili geri çəkir. Yarpaq tökülməsini gecikdirən böyümə hormonu olan oksin maddəsinin hasil edilməsinə mane olan da etilen qazıdır. Xlorofilin məhv edilməsinin başlaması ilə yarpaq günəşdən daha az enerji alır və daha az şəkər hasil edir. Bundan əlavə,



Qeybin açarları Onun yanındadır; Onları yalnız O bilir. O, quruda və dənizdə nələr olduğunu bilir. Onun xəbəri olmadan yerə düşən bir yarpaq belə yoxdur. Yerin qaranlıqlarında elə bir toxum, elə bir yaş və elə bir quru (şey) yoxdur ki, açıq-aydın yazıda (Lövhi-məhfuzda) olmasın.

(Ənam surəsi, 59)



yarpaqlara qızılı rəng verən karotenoidlər üzə çıxır və bu şəkildə yarpaqlar rənglərini dəyişirlər.

Bir müddət sonra etilen qazı yarpağın hər tərəfinə yayılır və yarpaq saplağına çatdıqda burada yerləşən kiçik hüceyrələr şişməyə başlayıb saplağın gərginləşməsinə səbəb olurlar. Yarpaq saplağının gövdəyə bitişdiyi hissədə yerləşən hüceyrələrin miqdarı artır və hüceyrələr xüsusi fermentlər ifraz etməyə başlayırlar. Əvvəlcə, sellüloz fermentləri sellülozdan təşkil olunmuş çəpərləri parçalayır, sonra pektinaza fermentləri hüceyrələri bir-birinə birləşdirən pektin təbəqəsini parçalayırlar. Getdikcə artan gərginliyə yarpaq tab gətirmir və saplaq xarici tərəfindən içəriyə doğru yarılmağa başlayır.

## Yarpaq tökülməsinin ardındakı hikmətlər

Yarpaq gövdədən tamamilə ayrıldığına görə daşıma borularından su qəbul edə bilmir, ona görə, yarpağın bitişdiyi yerlə əlaqəsi getdikcə zəifləməyə başlayır. Bir az güclü külək belə yarpağın saplağını qoparmaq üçün kifayət edir.

**Yarpaq tökülməsi ilə ağacdakı qida hədər olmur**

Allah töküləcək yarpaqlarda şüurlu mexanizm yaradıb. Yarpaq tökülməzdən əvvəl zülal və karbohidrat kimi maddələr bitkinin gövdəsində toplanır. Beləliklə, töküləcək yarpaq bu maddələri hədər etmir və yazda cücərəcək yeni yarpaqlar üçün lazımi qida ehtiyatı tədarük edilir. Bitkinin ehtiyacı olan maddələri gövdəsində toplaması Allah`ın yer üzündə yaratdığı həyatın davam etməsi üçün zəruridir.

**Yerə düşən yarpaq başqa canlılar üçün qida mənbəyidir**

Düşən yarpaqlar da mükəmməl sistemin bir hissəsini təşkil edirlər. Tökülən yarpaqların ən böyükləri torpağı qida ilə doldurur. Çünki torpağa düşən ölü yarpaqlarda həşəratlar, göbələklər və bakteriyalar üçün faydalı qida maddələri olur. Bu qida maddələrini mikroorqanizmlər parçalayıb torpağa qarışdırırlar. Ağaclar da bu maddələri kökləri vasitəsilə torpaqdan qida şəklində götürürlər.

Düşən yarpaqlar meşə torpağında humus təbəqəsi meydana gətirərək yağışın hopmasına kömək edir.





Bir çox canlı xarici amillərdən qorunmaq üçün yarpaqların altında gizlənirlər.

Şübhəsiz ki, fitoxromların günəş şüalarının azaldığını müəyyən etməsinin, yarpağın düşməsi üçün lazımi bütün fermentlərin uyğun zamanda işə düşməsinin, saplağın qopacağı yerdə hüceyrələrin xüsusi fermentlər ifraz etməyə başlamasının nə qədər möcüzəvi olduğu ortadadır. Ardıcıl işləyən və hər mərhələsi planlı, bir-biri ilə əlaqədar olan bu qüsursuz proseslər ardıcıllığının təkamülçülərin iddia etdiyi kimi təsadüflə açıqlanması qeyri-mümkündür. Bütün bu proseslərdəki zaman təyini də mükəmməldir. Yarpaq tökülməsi uca Allah`ın qüsursuz planı ilə mükəmməl işləyir. Ayədə belə buyurulur:

**Qeybin açarları Onun yanındadır, Onları yalnız O bilir. O, quruda və dənizdə nələr olduğunu bilir. Onun xəbəri olmadan yerə düşən bir yarpaq belə yoxdur. Yerin qaranlıqlarında elə bir toxum, elə bir yaş və elə bir quru (şey) yoxdur ki, açıq-aydın yazıda (Lövhi-məhfuzda) olmasın. (Ənam surəsi, 59)**

## Allah`ın incə sənətinə bir nümunə: yarpağın qopduğu hissənin mikrobdan qorunması

Yarpaqdakı qida hasilatının dayanması, yarpağın saplağından qopmağa başlaması və qopub düşməsi ilə böyüyən yarığın ətrafında sürətlə dəyişikliklər gedir. Yarpaq saplağı ilə qopub düşdükdən sonra qopduğu hissədə hüceyrələr dərhal suberin (mantar) ifraz etməyə başlayırlar. Beləliklə, yaranın üstü kallus adlanan mantar toxuması ilə örtülməyə başlayır. Bu maddə sellüloz çəpərinə yavaş-yavaş yerləşərək onun güclənməsinə kömək edir. Bu toxuma vasitəsilə bitkidə su itkisinin qarşısı alınır, qışın soyuğu, havadakı zərərli qazlar, bakteriya və göbələk kimi patogenlərdən də qorunur. Şübhəsiz ki, bu sistemi qüsursuz şəkildə bitkilərə yerləşdirən Rəhman və Rəhim olan, hər cür yaratmanı bilən Allah`dır:

**O, yaradan, yoxdan var edən, surət verən Allah`dır. Ən gözəl adlar ancaq Ona məxsusdur. Göylərdə və yerdə nə varsa Onu təqdis edib şəninə tariflər deyər. O, yenilməz qüvvət sahibi, hikmət sahibidir! (Həşr surəsi, 24)**

# DNT-nin möcüzəvi quruluşu



Canlıların orqanizmi ilə bağlı hər cür informasiya hüceyrələrindəki DNT adlanan molekullarda şifrlənmişdir. DNT molekulları hər hüceyrənin nüvəsində yerləşən böyük molekullardır. Nukleotid adlanan və 4 fərqli növü olan yüz minlərlə kiçik molekulların canlıya aid xüsusi ardıcıllıqla düzülməsi ilə canlının DNT-si əmələ gəlir. Hər canlının DNT molekulunda onun xarakteristik xüsusiyyətləri ilə bağlı informasiyalar şifrlənir. Bu, insanlarda da belədir. İnsanın digər canlılardan fərqli olması kimi, hər insanın digərindən fərqli olması da DNT-sindəki xüsusi düzülüşdən qaynaqlanır. DNT-ni təşkil edən nukleotidləri əlifbadakı hərflərə bənzətmək olar. Dörd nukleotid olduğuna görə, DNT molekulu bir növ dörd hərfdən ibarət əlifba ilə yazılmış böyük ensiklopediyadır.

DNT-dəki hərflərin ardıcıllığı insanın quruluşunu ən incə təfərrüatına qədər müəyyən edir. Boy, göz, saç, dəri rəngi kimi xüsusiyyətlərlə yanaşı, bədəndəki 206 sümüyün, 600 əzələnin, 10.000 eşitmə siniri şəbəkəsinin, 2 milyon optik sinir şəbəkəsinin, 100 milyard sinir hüceyrəsinin və 100 trilyon hüceyrənin planı bir hüceyrənin DNT-sində mövcuddur. Əgər DNT-dəki genetik məlumatı kağıza köçürsək, təxminən hər biri 500 səhifəlik 900 cilddən ibarət nəhəng kitabxana əmələ gələr. Ancaq bu ağlasığmaz həcmdəki informasiya mikroskopik ölçüdəki hüceyrənin nüvəsində yerləşən DNT-də şifrlənmişdir.

İnsanın bir DNT molekulunda 1 milyon ensiklopediya səhifəsini dolduracaq miqdarda informasiya var. Diqqət edin, düz 1.000.000 ensiklopediya səhifəsi... Yəni hər hüceyrənin nüvəsində insan orqanizminin funksiyalarını tənzimləyən 1 milyon səhifəlik ensiklopediya həcmində informasiya şifrlənmişdir. Bir bənzətmə edək: dünyanın ən böyük ensiklopediyalarından biri olan 23 cildlik Britannika ensiklopediyasının 25.000 səhifəsi var. Bu halda, heyranedici vəziyyətlə qarşılaşırıq. Mikroskopik hüceyrənin içində ondan da kiçik nüvədə yerləşən bir molekulda milyonlarla informasiya saxlayan, dünyanın ən böyük ensiklopediyasından 40 dəfə böyük olan informasiya bankı yerləşir. Bu isə 920 cildlik nəhəng ensiklopediya deməkdir. Bu nəhəng ensiklopediyada təqribən 5 milyard müxtəlif informasiya olduğu təxmin edilir.

Üstəlik, bu böyük informasiya dünya yarandığı dövrdən bəri yaşamış milyardlarla insanın hər birinin 100 trilyon hüceyrəsinin hamısında mövcud olub. Şübhəsiz ki, bu, göylərin və yerin Rəbbi olan Allah`ın sonsuz qüdrətinin açıq-aydın göstəricisidir.









## DNT-nin təbii şərtlərlə təsadüfən əmələ gəlməsi qeyri-mümkündür

İnsan orqanizmində 200.000 gen olduğunu nəzərə alsaq, bu genləri təşkil edən milyonlarla nukleotidin təsadüfən düzgün düzülməsinin qeyri-mümkün olduğunu görərik. Təkamülçü bioloq Frenk Solsberi belə deyir:

"Orta ölçülü bir zülal molekulu təqribən 300 amin turşusundan ibarət olur. Bunu tənzimləyən DNT zəncirində isə təqribən 1000 nukleotid var. Bir DNT zəncirində 4 növ nukleotid olduğunu nəzərə alsaq, 1000 nukleotidlik düzülüş 41.000 fərqli formada olmalıdır. Kiçik loqarifm hesablaması ilə əldə olunan bu rəqəm ağılın qavrama həddini aşır". *(Frank B. Salisbury, "Doubts About The Modern Synthetic Theory of Evolution", American Biology Teacher, sentyabr 1971, səh. 336.)*

41.000-də 1 kiçik loqarifm hesablaması nəticəsində $10^{620}$-də 1 deməkdir. Bu rəqəm 10-un yanına 620 sıfır qoymaqla əmələ gəlir. 10-un yanına 11 sıfır qoyduqda 1 trilyon alınır, 620 sıfırı olan rəqəmi isə qavramaq mümkün deyil.

Nukleotidlərin təsadüfən birləşərək RNT və DNT-ni əmələ gətirməsinin qeyri-mümkün olduğunu təkamülçü fransız elm adamı Pol Ocer də belə ifadə edir:

"Təsadüfi kimyəvi proseslər sayəsində nukleotidlər kimi mürəkkəb molekulların əmələ gəlməsi ilə bağlı məncə iki mərhələni bir-birindən konkret ayırmalıyıq: tək-tək nukleotidlərin sintezlənməsi – ki bu, bəlkə, mümkün ola bilər – və bunların xüsusi düzülüşlə bir-birinə birləşməsi. Məhz bu ikincisi qeyri-mümkündür". *(Paul Auger, De La Physique Theorique a la Biologie, 1970, səh. 118.)*

San-Diyeqo Kaliforniya Universitetindən Stenli Millerin və Frensis Krikin həmkarı məşhur təkamülçü Lesli Orgel isə bu barədə belə deyir:

"Çox kompleks quruluşu olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlməsi tamamilə ehtimaldan kənardır. Ancaq bunlardan biri olmadan digərini də əldə etmək mümkün deyil. Ona görə, insan bu nəticəyə gəlməli olur ki, həyatın kimyəvi yollarla meydana gəlməsi əsla mümkün deyil". (Leslie E. Orgel, «The Origin





of Life on Earth», Scientific American, cild 271, oktyabr 1994, səh. 78.)

Bu həqiqəti digər bəzi tanınmış təkamülçü elm adamları da qəbul edir:

"DNT katalitik zülalların və fermentlərin köməyi olmadan gördüyü işi, yeni DNT hasil etmək də daxil olmaqla, görə bilməz. Qısası, DNT olmasa, zülallar olmaz, ancaq DNT də zülallar olmasa, əmələ gəlməz". (John Horgan, «In the Beginning», Scientific American, cild 264, fevral 1991, səh. 119)

"Necə olur ki, genetik informasiya onu şərh edən mexanizmlərlə (ribosomlar və RNT molekulları ilə) birlikdə üzə çıxıb? Bu sual qarşısında özümüzü bir cavabla deyil, heyranlıq və təəccüb hissləri ilə razı salmalıyıq". (Douglas R. Hofstadter, Gıdel, Escher, Bach: An Eternal Golden Braid, New York: Vintage Books, 1980, səh. 548.)

**İnsanın bir DNT molekulunda 1 milyon ensiklopediya səhifəsini dolduracaq miqdarda informasiya yerləşir.**



# HÜCEYRƏLƏRİN DƏYİŞMƏSİNDƏKİ SİRR

Bölünərək çoxalmaq üçün ilk hüceyrə öz surətini çıxarmalı, bu surətlər də növbələri çatdıqda bölünüb bənzər surətlər çıxarmalı, beləcə, tədricən eyni hüceyrədən milyonlarla surət meydana gəlməlidir. Lakin bütün bu proses göründüyündən də kompleks və əsrarəngizdir. Çünki bölünmə prosesinin bir mərhələsində surəti çıxarılan hüceyrələrdən bəziləri haradan gəldiyi bilinməyən əmrlə digər qardaşlarından fərqlənməyə və tamamilə fərqli quruluş almağa başlayırlar. Bu şəkildə, ortaq ana hüceyrədən gələn hüceyrələr bölünmə prosesi nəticəsində tədricən dəyişib ayrı-ayrı toxumaları və orqan sistemlərini əmələ gətirirlər. Bəzisi işığa həssas göz hüceyrələrini, bəzisi qaraciyər hüceyrələrini, bəzisi istini, soyuğu, ağrını hiss edən sinir hüceyrələrini və ya səs titrəyişlərini hiss edən hüceyrələri əmələ gətirirlər.

Bəs belə bir iş bölgüsü necə baş verir? Bir hüceyrə öz-özünə göz hüceyrəsi olmağa qərar verə bilmədiyinə görə bu qərarı kim verir?

Bu hüceyrələrin DNT-si, yəni genetik informasiyası eynidir. Aradakı fərq isə hasil etdikləri zülallardır. Müxtəlif zülallar hasil edən iki hüceyrə quruluş cəhətdən də fərqlənir. Bu qardaş hüceyrələr eyni hüceyrədən əmələ gəldiyi, eyni genetik informasiyaya malik olduğu halda, necə olur ki, birdən fərqli zülal hasil edib fərqli quruluş və xüsusiyyətlər qazanırlar? Tamamilə bir-birinin surəti olduğu halda, bir-birlərindən fərqli zülallar hasil etmək əmrini kim verir?

Təkamülün israrlı müdafiəçilərindən olan alman elm adamı Hoymar fon Ditfurt ana bətnindəki möcüzəvi inkişaf haqqında belə yazır:

“Bir yumurta hüceyrənin bölünməsinin necə olub bir-birindən o qədər fərqlənmiş çoxlu hüceyrənin əmələ gəlməsinə səbəb olduğu, bu hüceyrələr arasında öz-özünə olan rabitə və müştərək iş elm adamlarının anlaya bilmədiyi proseslərdəndir". (Hoimar Von Dithfurth, «Dinozorların Sessiz Gecesi», Alan Yayıncılık, cild 2, səh.126)

Təkamülün digər qabaqcıl müdafiəçiləri də bir hüceyrənin dəyişərək müxtəlif orqan və toxumaları əmələ gətirib 100 trilyon hüceyrədən ibarət insana çevrilməsini açıqlaya bilmir, bu möcüzəni “təkamülün qaranlıq nöqtəsi" adlandırırlar.

**Şəkil: İnsan orqanizmindəki təqribən 200 növ hüceyrənin mənbəyi kök hüceyrələrdir. (1)Bir-birlərinin surəti olan kök hüceyrələri bir müddət sonra birdən digər hüceyrələrdən fərqlənməyə başlayırlar. Bu dəyişmə ilə kök hüceyrələrindən toxumalar əmələ gəlir. Enerji verən yağ hüceyrələri (2), yaraları sağaldan hüceyrələr (3) və damar hüceyrələri (4) bu toxumalardan bəzilərdir.**





# DÜNYA HƏYATI ÇOX QISA İMTAHAN DÖVRÜNDƏN İBARƏTDİR

Böyük səy göstərərək əldə etdiyiniz eviniz, əşyalarınız, geyimləriniz, yediyiniz yeməklər, əlvan rəngləri ilə göz qamaşdıran çiçəklər, yamyaşıl ağaclar, bədəniniz, saçlarınız, dəriniz, qısası, hər şey zaman ərzində köhnəlməyə, xarab olmağa, yaşlanmağa məhkumdur. Heç bitməyəcəkmiş kimi görünən dünya həyatı çox qısa imtahan dövründən ibarətdir və bütün gözəlliklər zamanla məhv olur.

Hər insanın həyata keçirmək istədiyi arzusu var. Bəzən bunların zamanı çox yaxın, imkanları da arzusunun reallaşması üçün uyğundur. Bəzi insanların da böyük istəklə arzuladığı hadisələrin həyata keçməsi isə, Allah`ın izni ilə, çox çətin olur. Bu insanların əlindəki maddi-mənəvi imkanlar və şərait arzularının reallaşması üçün kifayət etmir. Məsələn, yaşlı bir insan nə qədər geriyə qayıdıb gənclik illərində yaşamağı arzulasa da, Allah`ın adətullahına uyğun olaraq, bu, dünya həyatında mümkün deyil. Bu vəziyyəti hər kəs bilir, ancaq yenə də imkanları istəklərinin reallaşması üçün çox uyğun olan insanlar da, olmayanlar da bəzən xəyallarının reallaşmasını çox istəyirlər. Bu da dünyadakı imtahanın bir sirridir.

İnsanın dünya həyatında istədiyi hər şey ən mükəmməl şəkildə reallaşsa da, həyatının sonuna qədər heç reallaşmasa da, insanlar bir həqiqəti heç unutmamalı və üzərində yaxşı düşünməlidirlər: bütün istədiklərini əldə edənlər də, heç birini əldə etməyənlər də bu dünyada çox qısa müddət yaşayacaqlar...

## Dünya həyatı bir göz qırpımı qədər qısadır

Dünya həyatı bir göz qırpımı qədər qısa müddətdə bitir və insanların əldə etdiyi xoşbəxtlik hissi də sona çatır. Bu səbəbdən, insan bütün diqqətini təkcə istəklərinin reallaşıb-reallaşmadığına deyil, sonsuz axirət həyatını qazanacaq əxlaqda olub-olmadığına verməlidir. Çünki bir insanın bütün arzuları məhz istədiyi şəkildə reallaşsa da, xoşbəxtliyi bir neçə onillik davam edər. Sonda mütləq bu nemətlər əlindən çıxacaq, ölümlə birlikdə sahib olduğu hər şey geridə qalacaq. Arzu etdiyi bütün gözəllikləri axirətdə əldə etməyi hədəf seçən insan isə bu xoşbəxtlik hissini əbədiyyən duyacaq.

İnsan bir anlıq bu həqiqət üzərində düşünməli və müqayisə etməlidir. Öz-özünə qərar verməlidir. Sadəcə dünyadakı gözəllikləri əldə etmək üçün çalışmağın insana heç bir faydası olmayacağını görməlidir. Allah istəsə, insana dünyada da nemət verə bilər və bu, bir insan üçün çox böyük lütfdür. Ancaq insanın bunu məqsədə çevirərək rahatlığı, xoşbəxtliyi, sevinci üçün bunu bir növ şərt qoşması çox böyük qəflət və xətadır. İnsan arzuladığı bütün nemətləri Allah`dan dünyada və axirətdə lütf etməsini diləyər, ancaq Rəbbimizin ona verdikləri ilə də sevinər. Əsas odur ki, bu xoşbəxtliyi sadəcə səthi xoşbəxtlik kimi görməsin, əbədi həyatında Allah`ın bütün istədiklərini verəcəyini ümid edərək nemətlərinin ən gözəlinə qovuşarlar:

**Dünya həyatında da, axirətdə də onlara müjdə vardır... (Yunis surəsi, 64)**

Allah dünya həyatını insanlardan hansının yaxşı



işlər görəcəyini, kimlərin Ona sadiq qalacağını sınamaq üçün yaratmışdır. Başqa sözlə, dünya Allah`dan qorxanlarla Ona nankorluq edənləri ayırd etmək üçün hazırlanmış imtahan yeridir. Bu imtahan yerində gözəlliklərlə çirkinliklər, yaxşılıqlarla pisliklər, qüsurlarla mükəmməlliklər birlikdədir və qüsursuz imtahan sistemi qurulmuşdur. İnsanlar imanlarının üzə çıxması üçün hər cür sınaqdan keçirilirlər. Nəticədə, Allah`ı layiqincə tanıyıb təqdir edənlər inkar edənlərdən ayrılacaq və nicat tapacaqlar. Bu həqiqət Quranda belə bildirilmişdir:

**İnsanlar elə güman edirlər ki, təkcə: "İman gətirdik!"– demələri ilə onlardan əl çəkiləcək və onlar imtahan edilməyəcəklər? Biz onlardan öncəkiləri də sınaqdan keçirmişdik. Sözsüz ki, Allah doğru danışanları da, yalançıları da aşkara çıxardacaqdır. (Ənkəbut surəsi, 2-3)**

## İnsanın hədəfi Allah rizası olmalıdır

Əlbəttə, insanın sadəcə əbədi yaşamaq və hər istədiyini əbədiyyən əldə etmək üçün axirəti istəməsi doğru olmaz. İnsanın əsl hədəfi Rəbbimizin sevgisini istəmək, Onun dostluğunu qazanmağa çalışmaq və əbədiyyən Allah`ın razı olduğu kəslərdən olaraq yaşamaq olmalıdır. Allah`a güclü sevgisi olan bir insana Allah tükənməz nemət bəxş edər. Ancaq Allah sevgisi olmadan və Allah sevgisi insanın əsl hədəfi olmadan belə bir nəticə əldə olunmaz.

Dünyada Allah sonsuz qüdrətinin və elminin göstəricisi olaraq bir çox gözəllik, sənət və möcüzə ilə yanaşı, qüsur və çatışmazlıqları da yaradır. Mükəmməllik və daimilik bu dünyanın qanununa ziddir. İnkişaf edən texnologiya da daxil olmaqla, insan ağlının düşündüyü heç bir yol Allah`ın bu qanununu dəyişdirə bilməz. Beləcə, insanlar bir tərəfdən axirət üçün çalışıb Allah`a şükür etməli, digər tərəfdən də nemətlərin əsl yerinin bu fani dünya deyil, möminlər üçün hazırlanmış qüsursuz yurd olan cənnət həyatı olduğunu anlamalıdırlar. Quranda bu həqiqət açıq şəkildə bildirilir:

**Xeyr, siz dünya həyatını (olduqca) üstün tutursunuz; axirət isə daha xeyirli və daha sürəklidir. (Əla surəsi, 16-17)**

# İslam ƏDALƏTLƏ DAVRANMAĞI ƏMR EDIR



İslam əxlaqı iman gətirənlərə danışarkən, iş görərkən və ya qərar verərkən ədalətlə davranmağı əmr edir. Allah`ın Quranda bildirdiyi əmrlər və Peyğəmbərimizin (səv) sünnəsi bu ədalət anlayışını bizə hərtərəfli açıqlayır. Quranda bizə bildirilən bütün elçilər öz qövmlərinə ədalət və sülh gətirmişdir. Peyğəmbərlər ümmətlərinin üzərindəki zülmün, zorakılığın qalxmasına səbəb olmuşdur. Allah "Yunis" surəsində belə bildirir:

**Hər ümmətin bir elçisi vardır. Elçiləri gəldikdə onların arasında ədalətlə hökm verilər və onlara zülm edilməz. (Yunis surəsi, 47)**

Müsəlmanın ədalət anlayışının ən əsas xüsusiyyəti qarşısındakı insan öz yaxını da olsa, hər şərtdə ədalətlə hökm etməsidir. Allah ayədə belə bildirir:

**Ey iman gətirənlər! (Şahidliyiniz) özünüzün və ya valideynlərin, ya da yaxın qohumların əleyhinə olsa belə, Allah şahidləri kimi ədaləti qoruyun. Varlı və ya kasıb olmasından asılı olmayaraq, Allah onların hər ikisinə daha yaxındır. Hissiyyata qapılıb haqdan uzaqlaşmayın! Əgər dilinizi əyib büzsəniz və ya boyun qaçırsanız, bilin ki, Allah nə etdiklərinizdən xəbərdardır. (Nisa surəsi, 135)**

Ayədən də göründüyü kimi, iman gətirən insan üçün qarşısındakı şəxsin maddi vəziyyəti və ya sosial statusu heç bir əhəmiyyət daşımır. Haqqın bərqərar olması, heç kəsin haqsızlığa məruz qalmaması və Allah`ın ayələrinin tam yerinə yetirilməsi əsasdır. "Maidə" surəsində isə belə buyurulur:

**Ey iman gətirənlər! Allah xatirinə ədaləti qoruyan şahidlər olun. (Hər hansı bir) camaata qarşı olan kin-küdurət sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun! Bu, təqvaya daha yaxındır. Allah`dan qorxun! Şübhəsiz ki, Allah nə etdiklərinizdən xəbərdardır. (Maidə surəsi, 8)**

Yuxarıdakı ayədə isə Allah iman gətirənlərə öz düşmənləri belə olsa, həmişə ədalətlə

hökm vermələrini əmr edir. Müsəlman qarşısındakı insanın ona haqsızlıq etdiyini, onu çətin vəziyyətdə qoyduğunu və ya düşmən olduğunu düşünüb ani qərarlar verməz, həmişə vicdanı ilə və Quran ayələri əsasında düşünər. Qarşı tərəf yanlış davransa belə, o yaxşılıqla qarşılıq verməklə və Allah`ın əmr etdiyi kimi davranmaqla məsuldur.

Allah "Mümtəhinə" surəsinin 8-ci ayəsində isə: "Allah din uğrunda sizinlə vuruşmayan və sizi öz diyarınızdan qovub çıxartmayan kimsələrə yaxşılıq etmənizi və onlarla insafla davranmanızı sizə qadağan etmir. Şübhəsiz ki, Allah insaflı olanları sevir", -şəklində buyurmuş və müsəlmanların digər xalqlarla münasibətlərinin hansı sərhədlər çərçivəsində olmasını bildirmişdir. İman gətirən insanın bütün insanlara baxışı bu ayələr əsasında olmalıdır. Müsəlmanın rəftarı qarşısındakı şəxsə görə deyil, Allah`ın Quranda bildirdiklərinə görədir. Bu səbəbdən, səmimi qəlbdən iman gətirən müsəlman həmişə doğruların tərəfində olur. İman gətirənlərin bu mövzuda qətiyyəti **"Yaratdıqlarımız içərisində bir zümrə də vardır ki, onlar insanları haqq yola aparır, ədalətlə hökm edirlər" (Əraf surəsi, 181)** ayəsi ilə bizə müjdələnir. Quranda ədalətlə bağlı digər ayələr bunlardır:

**Həqiqətən, Allah sizə əmanətləri sahiblərinə qaytarmanızı və insanlar arasında hökm verərkən ədalətlə hökm vermənizi əmr edir. Allah`ın sizə verdiyi bu öyüd-nəsihət necə də gözəldir! Şübhəsiz ki, Allah eşidəndir, görəndir. (Nisa surəsi, 58)**

**Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi və qohumlara verməyi əmr edir, iyrənc işlər görməyi, pis əməllər törətməyi və azğınlıq etməyi isə qadağan edir. O, sizə öyüd-nəsihət verir ki, bəlkə düşünüb ibrət alasınız. (Nəhl surəsi, 90)**

Quranda keçən ədalət anlayışına əsasən, qarşı tərəfin hansı dinə, irqə və ya cinsə mənsub olması əhəmiyyət daşımır. Çünki İslam irqlər, cinslər arasında bərabərliyi müdafiə edir. Hər cür etnik ayrı-seçkiliyi qadağan edir. Peyğəmbərimiz hz. Muhəmməd (səv): *"Bütün insanlar hz. Adəmdən, hz. Adəm isə torpaqdandır"*, -deyərək insanlar arasında heç bir fərqin olmadığını vurğulamışdır.(Sünen-i Ebu Davud, 4/331) Dəri rəngi, sosial status, zənginlik kimi xüsusiyyətlər heç bir insanda üstünlük yaratmır.

Bu gün dünyanın hər tərəfində insanlar milliyyətinə, dilinə və ya dərisinin rənginə görə zülmə məruz qalır. Quranda bildirildiyinə əsasən, müxtəlif xalqların və qəbilələrin yaradılmasının hikmətlərindən biri insanların bir-birləri ilə tanış olmasıdır. Hamısı


De: "Rəbbim ədalətli olmağı əmr etdi. Hər səcdə etdiyiniz yerdə üzünüzü Ona tutun və Allah'a - dini məhz Ona məxsus edərək dua edin. Sizi ilk dəfə yaratdığı kimi diriləcəksiniz".
(Əraf surəsi, 29)





Allah`ın qulu olan müxtəlif millətlər və ya qəbilələr bir-biri ilə tanış olmalı, bir-birinin fərqli mədəniyyətini, dilini, adət-ənənəsini, qabiliyyətlərini öyrənməlidirlər. Müxtəlif irq və millətlərin olmasının bir məqsədi də münaqişə və müharibə deyil, mədəni zənginlikdir. İman gətirən insan yeganə üstünlüyün təqva, yəni Allah qorxusu və Allah`a imandakı üstünlük olduğunu bilir. Allah "Hücurat" surəsində belə bildirir:

**Ey insanlar! Biz sizi kişi və qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınızdır. Həqiqətən, Allah biləndir, xəbərdardır. (Hücurat surəsi, 13)**

Başqa bir ayədə isə Allah: **"Göylərin və yerin yaradılışı, dillərinizin və rənglərinizin müxtəlifliyi də Onun dəlillərindəndir. Həqiqətən, bunda bilənlər üçün ibrətamiz dəlillər vardır!" (Rum surəsi, 22)** -şəklində bildirir.

İslam tarixinə nəzər saldıqda iman gətirənlərin müxtəlif irqlərə qarşı ədalətlə davranması ilə bağlı bir çox nümunə ilə qarşılaşırıq. İslam Afrika, Asiya və Avropaya sürətlə yayılmış, bu fəthlər vasitəsilə İslam əxlaqının gözəllikləri də yayılmışdır. İslam hər irqə, milliyyətə, sosial quruluşa və coğrafiyaya yayılmış, dünyanın daha əvvəl bənzərini görmədiyi qardaşlıq münasibəti ilə milyonlarla insanı birləşdirmişdir. İnsan irqinin qolları və qaradərili irqin digər millətlərlə əlaqələrini tədqiq edən və bu sahədə mühüm əsərləri ilə tanınan tədqiqatçı Coul Avqustus Reycers (Joel Augustus Ragers) məşhur kitabı "Cins və İrq" (Sex and Race) adlı əsərində İslam dinin dünyaya təsirini belə tərif edir:

"İslamın əsrlərdir parlaq şəkildə ayaqda qalmasının bir səbəbi bu dində irq və siniflə bağlı yanlış rəylərin, demək olar ki, tamamilə yox olması, dərinin rəngini və ya sosial vəziyyəti nəzərə almadan cəmiyyətin ən yüksək pillələrinə qədər yüksəlməyin qabiliyyətdən asılı olmasıdır... İslam, tarixinin ən böyük və eyni zamanda, ən azad irq küpünü əmələ gətirmiş və bu irqlər qarışığı dünyanın bənzərini görmədiyi ən geniş imperiyanın tərkibində baş vermişdir. Gücünün ən yüksək zirvəsində ikən İslam imperiyası qərbdə İspaniya və Fransanın ortalarından Mərkəzi Asiya bölgələri də daxil olmaqla, şərqdə Hindistana, Çinə və Sakit okeanına qədər uzanırdı. Bu geniş torpaqların sultanları müxtəlif dəri rənglərinə malik idilər. Bir bağın çiçəklərinin rənglərinin fərqli olması bu çiçəklər üçün nə qədər əhəmiyyətlidirsə, dərilərinin rənglərinin fərqliliyi də müsəlmanlar üçün bundan da az əhəmiyyət daşıyırdı". (Andy Thomas, İslam İnsanlığın Ruhu, Timaş Yayınları, İstanbul, 1997, səh. 33)



Dünyanın ən tanınmış İslam mütəxəssislərindən biri professor Hamilton Aleksandr Rossken Gibb (Hamilton Alexander Rossken Gibb) "İslam haraya?" (Whither Islam?) adlı əsərində İslam dininin müxtəlif irqlərə baxışını belə ifadə edir:

"Bəşəriyyətin bu qədər fərqli irqini status, fürsət və təşəbbüs cəhətdən bərabər hüquqlara malik şəkildə birləşdirməkdə bu qədər müvəffəq olan başqa bir cəmiyyət yoxdur. İslam tamamilə uyğunlaşmayacaq kimi görünən müxtəlif irqləri uzlaşdırma gücünə malikdir. Şərq və qərbdəki böyük xalqların bir-birinə müxalifətini əməkdaşlıq əvəz etdiyi təqdirdə, İslamın uzlaşdırıcı rolu labüd olacaq..." (H.A.R. Gibb, Whither Islam, London, 1932, səh. 379.; Andy Thomas, İslam İnsanlığın Ruhu, Timaş Yayınları, İstanbul, 1997, səh. 37)

İslam əxlaqı qardaşlıq, sülh, azadlıq və əmin-amanlıq təməlləri üzərində cəmiyyət qurmağı hədəfə alır. Bu səbəbdən, İslamla tanış olan hər xalq keçmiş dövrlərin repressiv, zalım, ixtilaf yaradan düşüncə tərzindən sıyrılmış, yenidən sülh əsasında bir cəmiyyət inşa etmişdir. Bir çox qərbli tarixçi bu həqiqəti əsərlərində dilə gətirmiş, İslamla tanış olmağın müxtəlif xalqlara dərin müsbət təsir etdiyini ifadə etmişdir. Professor Robert Briffault "Bəşəriyyətin inkişafı" (The Making of Humanity) adlı əsərində qərb cəmiyyətinin İslamla əlaqəsinə belə toxunur:

"Bütün bəşəriyyət üçün azadlıq, qardaşlıq, insanların qanun qarşısında bərabərliyi, məsləhətləşmədən və ümumi seçkilərdən istifadə edən demokratik hökumət idealları, Amerika konstitusiyasının hazırlanmasına təşəbbüskarlıq edən və İnsan Hüquqları Bəyannaməsini ilham edən ideallar qərbin yenilikləri deyildi. Bu ideallların hamısının təməlləri Müqəddəs kitab Quranda var. Bu ideallar Avropada orta əsrlərdə maarifçilərin müsəlman olan İspaniya, Siciliya, Xaçlılar və İslami qardaşlıq dərnəklərini təqlid etməsi ilə və xaçlılardan sonra Avropada formalaşan cəmiyyət vasitəsilə İslamdan öyrəndiklərinin əsasıdır". (Prof. Robert Briffault, The Making of Humanity.; Andy Thomas, İslam İnsanlığın Ruhu, Timaş Yayınları, İstanbul, 1997, səh. 38)

Yuxarıdakı sitatda izah edilən həqiqətlər İslam əxlaqının bütün dünyaya əsrlər boyu sülh, tolerantlıq və ədalət dərsi verdiyini göstərir. Dövrümüzdə də bütün dünya insanları belə bir sivilizasiyanın həsrətindədir və belə bir sivilizasiyanın yenidən qurulmaması üçün heç bir səbəb yoxdur. Lazım olan yeganə şey insanların, əvvəlcə, özlərindən başlayaraq Quran əxlaqı ilə yaşamağa niyyət etməsi, sonra da insanlar arasında bu əxlaqı yaymaq üçün cəhd etməsidir. İnsanlar Quranda əmr edilən əxlaqı yaşadıqda ən üstün səviyyədəki idarəçidən ən aşağı səviyyəyə qədər hər kəs ədalətli, mərhəmətli, anlayışlı və dürüst olar, bütün xalqlar sülh və əmin-amanlığa qovuşar.



# Nəfəs alarkən qarşılaşdığımız təhlükə

Burnumuzun əsas funksiyası nəfəs aldığımız havanın içindəki toz zərrəciklərinə, bakteriya və mikroblara mane olmaq, beləcə, ağciyərdə əmələ gələcək xəstəliklərin qarşısını almaqdır. Bu mükəmməl təhlükəsizlik mexanizmi belə işləyir: havadan daxil olan zərərli zərrəciklər tənəffüs yollarının səthindəki nəmləndirici selik təbəqəsi tərəfindən tutulur. Sonra silia adlanan kirpikciklər işə düşür. Tərkibində zərərli maddələr olan seliyi kirpikciklər dəqiqədə 1 sm sürətlə udlağa doğru itələyir, daha sonra öskürəklə xaric edilir və ya udularaq mədədəki turşularla məhv edilir. Burada ümumi izah etdiyimiz bu proseslər, əslində, çox mürəkkəbdir. Belə ki, milyonlarla kirpikciyin mütəşəkkil halda necə hərəkət etdiyi və iş mexanizminin təfərrüatları hələ tam məlum deyil. Selik təbəqəsi, selik ifraz edən hüceyrələr və kirpikciklər mükəmməl kimyəvi təmizləmə sistemi meydana gətirirlər. Bu təmizləmə sistemi elə qüsursuz işləyir ki, orqanizmimiz üçün nəyin lazımlı, nəyin təhlükəli olduğunu dərhal müəyyən edir və lazımi tədbirləri görür.

Burada açıq-aydın həqiqət var: burundakı klima (hava tənzimləyici), təhlükəsizlik və təmizləmə mexanizmləri mükəmməl mühəndislik nümunələridir. Bu sistemlər insanlar heç fərqində olmadan Allah`ın ilhamı ilə fasiləsiz işləyir. Biz gözlə görünməyən kirpikciklər sayəsində bəzi xəstəliklərdən qorunuruq. Bunlar Allah`ın qüsursuz yaratma dəlillərindəndir. Quran ayələrində bu həqiqət belə bildirilmişdir:

... Həqiqətən, göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Hər şey Ona baş əyir. Göyləri və yeri icad edən Odur. O, bir işi yaratmaq istədikdə ona ancaq: "Ol!"– deyər, o da olar. (Bəqərə surəsi, 116-117)

İnsan isə bu möhtəşəm sənət üzərində dərin-dərin düşünməli və acizliyini, qulluq vəzifəsini qəbul edərək hər şeyin yeganə hakimi olan Allah`a təslim olmalıdır.


WWW.DOVLETEBAGLILIQ.ORG